

XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...

# BİNƏQƏDİ

Hər bir dövlət orqanı tənqidlərdən ciddi nəticə çıxarmalıdır

SƏH. 2

№2 (161) | 3 fevral 2017

İCTİMAİ-SİYASİ QƏZET

Qiyməti: 40 qəpik

## Azərbaycan Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünə qoşulan ilk ölkələrdəndir



Prezident İlham Əliyev Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü (MHŞT) idarə heyətinin sədri Frederik Reynfeldti qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanın bu təşəbbüsə qoşulan ilk ölkələrdən biri olduğunu dedi. Prezident İlham Əliyev Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün Londonda keçirilən ilk iclasında iştirak etdiyini məmnunluqla xatırladı.

Frederik Reynfeldt Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü ilə uzun illər əməkdaşlıq etdiyini və həmin sahədə böyük nailiyyətlər qazandığını vurğuladı. Qonaq ölkəmiz tərəfindən açıqlanan hesabatların bu qurumun tələblərinə uyğun olduğunu qeyd etdi.

Görüşdə Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü ilə əməkdaşlığın davam etdirilməsinə sadiq olması bir daha vurğulandı, ölkəmizin gələcəkdə bu qurumda tam hüquqlu üzv statusunun bərpa olunması üçün bütün lazımi tədbirlərin həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

## Qətər-Azərbaycan münasibətləri yüksək səviyyədədir



Prezident İlham Əliyev Qətər Dövlətinin xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman Al-Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Qətər arasında ikitərəfli əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə etdi.

Görüşdə BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqdan məmnunluq ifadə olundu və bu əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəmi vurğulandı.


TƏDBİR SƏH. 3



Məcburi köçkünlərlə bağlı Fərmanın icrası ilə əlaqədar müşavirə

SMX-1646 SƏH. 6



Vətəndaş məmnunluğunun təmin olunmasında böyük pay sahibi

SİYASƏT SƏH. 7



Hesabat-seçki yığıncaqları davam edir


## İlham Əliyev:
# "Dünyanın ən mötəbər iqtisadi qurumları bizim işimizə yüksək qiymət verirlər"




Yanvarın 30-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Konfransda giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı bildirib ki, dünyada baş verən qlobal iqtisadi çətinliklərə baxmayaraq, 2016-cı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edib və bütün əsas vəzifələr icra olunub. Kənd təsərrüfatı 2,6 faiz, qeyri-neft sənayesi isə 5 faiz artıb. Ötən il yüz mindən çox daimi iş yeri yaradılıb: "2016-cı ildə gördüyümüz işlərə dünyanın mötəbər beynəlxalq iqtisadi qurumları da yüksək qiymət verirlər. Onların arasında dünyanın ən böyük qeyri-hökumət iqtisadi qurumu, bütün dünya liderlərini, dünyanın siyasi-iqtisadi elitasını birləşdirən Davos Dünya İqtisadi Forumu Azərbaycan ilə bağlı verdiyi hesabatda yenə də müsbət rəy bildirmişdir. Beləliklə, ölkələrin rəqabətqabiliyyətliliyinə görə Azərbaycan üç pillə irəliləyərək 37-ci yerdə qərarlaşmışdır. Digər göstəriciyə - inkişaf edən ölkələr arasında inkişafa görə isə, - bu hesablama təxminən 80-ə yaxın inkişaf edən ölkəni cəmləşdirir, - Azərbaycan birinci-ikinci yerləri bölüşür".

Azərbaycan Prezidenti bildirib ki, biz, əlbəttə ki, öz işimizi reytinq almaq üçün qurmuruq. Ancaq, əlbəttə, belə bir fikirlər ortalığa qoyulanda bu, həm bizi daha da sevindirir, eyni zamanda, bu, dünyanın bütün maliyyə qurumlarına bir siqnaldır: "Bu gün Azərbaycan üçün istənilən layihəyə kredit almaq artıq çoxdan problem deyil. Hətta indiki siyasətimiz ondan ibarətdir ki, biz xarici kreditlərə o qədər də böyük meyil göstərməyək. Çalışmalıyıq ki, bundan sonra da bütün işləri daxili imkanlar hesabına görək. Çünki xarici borcun artması müsbət hal deyil. Bizdə isə bu göstərici də çox yaxşı səviyyədədir, təqribən 20 faiz səviyyəsindədir. Bu da əvvəlki illərlə müqayisədə daha da böyük rəqəmdir. Bunun da səbəbi manatın devalvasiyaya uğramasıdır. Ondan əvvəlki dövrdə bizim xarici borcumuz 10 faiz həddini keçməyib. Bu gün də bu, məqbul səviyyədədir. Amma biz çalışmalıyıq ki, bu, artmasın, əksinə, azalsın".

Keçən il bölgələrdə çox böyük işlər görüldüyünü diqqətə çatdıran dövlətimizin başçısı bildirib ki, regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının icrası bölgələrimizin simasını xeyli dəyişdirib: "2004-cü ildə birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Çünki regionların inkişafı, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan bu addımlar, infrastruktur ilə bağlı olan layihələr, bax, bugünkü reallığı yaratmışdır. Əgər o vaxt biz proqramı mənim təşəbbüsümlə qəbul etməsəydik, bu gün, əlbəttə ki, regionlarda bugünkü uğurları əldə edə bilməzdik. Bizim bütün bölgələrimiz, bütün şəhərlərimiz abadlaşıb, gözəlləşib. Bakı şəhəri, bizim əsas şəhərlərimiz - Gəncə, Sumqayıt göz oxşayır, dünya üçün bir nümunədir. Bizim bütün şəhərlərimizdə abadlıq-quruculuq işləri aparılmışdır, böyük infrastruktur layihələri icra edilmişdir. Bu, imkan verir ki, bu gün Azərbaycan dinamik inkişaf etsin. Bu, imkan verir ki, biznes strukturları bu imkanlardan səmərəli istifadə etsinlər".

Azərbaycan Prezidenti sosial infrastruktur layihələrinin icrasına da diqqət çəkib və bildirib ki, 2004-cü ildən başlayaraq üç mindən çox məktəb tikilib və ya təmir edilib, 600-dən çox tibb ocağı tikilib və ya təmir olunub. Bölgələrdə 40-dan çox Olimpiya İdman Kompleksi, 20-dən çox muzey, 10-dan çox teatr binası inşa edilib

Dövlətimizin başçısı kənd təsərrüfatını stimullaşdırmaq üçün böyük meliorativ tədbirlər görüldüyünü, yüz minlərlə hektar torpağın meliorativ vəziyyətinin yaxşılaşdırıldığını, yeni suvarılan sahələrin dövriyyəyə buraxıldığını, dörd su anbarının tikildiyini diqqətə çatdırıb. İnkişaf proqramlarının icra edildiyi illər ərzində Azərbaycanda güclü və fəal milli biznes sinfinin formalaşdığını xatırladıb: "Dövlət bu sahədə öz dəstəyini əsirgəməmişdir. Mən iş adamları ilə daim təmasdayam, görüşlər keçiririk, onların problemlərinin həlli ilə məşğuluq və onlara həmişə siyasi və maddi dəstək verilir. Çünki mən yaxşı başa düşürdüm ki, ilkin kapital olmadan heç bir iş görmək mümkün deyil. Bir də ki, heç bir biznesmen, iş adamı riskli yerlərə, ölkələrə heç vaxt pul qoymaz. Ona görə təhlükəsizlik, sabitlik, gözəl ictimai ab-hava, biznesə dövlət dəstəyi və maddi dəstək, - bax, hesab edirəm ki, bu amillər milli biznes sinfini formalaşdırıb.

Son illər ərzində - 2004-cü ildən bu günə qədər Azərbaycan sahibkarlarına təxminən 2 milyard manat dəyərində güzəştli şərtlərlə kreditlər verildiyini, kreditlərin ölkə iqtisadiyyatının inkişafına böyük dəstək olduğunu vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, artıq bu ildən Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə veriləcək güzəştli kreditlərin hamısı əvvəlki illərdə verilmiş və qaytarılmış kreditlər hesabına təmin olunacaq: "Hesab edirəm ki, bu da bir yenilik idi. Mən xatırlamıram ki, hər hansı bir ölkədə biznes strukturlarına dövlət tərəfindən, bax, bu formada yardım göstərilsin. Onu da qeyd etməliyəm ki, bizim təcrübəmizdən indi bir çox ölkələr istifadə edirlər və bizi nümunə kimi göstərirlər. Ona görə infrastruktur layihələri, onunla paralel olaraq biznes mühitinin yaxşılaşdırılması, biznesə göstərilən diqqət və əlbəttə ki, sosial infrastrukturun yaradılması vahid bir proqram çərçivəsində uğurla icra edilir".

Dövlət başçısı bildirib ki, ötən illər ərzində ölkəmizin strateji maraqlarını təmin edən nəhəng layihələr həyata keçirilib. Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri 2007-ci illərdə istifadəyə verilib. Hazırda yeni bir qlobal layihə – Cənub Qaz Dəhlizi icra edilir.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, Azərbaycan Meyvə və Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Bəşir Quliyev, Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov, Azərbaycan Turizm Assosiasiyasının rəhbəri Nahid Bağırov və digər natiqlər dövlətin sahibkarlığın inkişafına verdiyi dəstək, regionlarda yaradılan istehsal sahələri və sahibkarların ixrac imkanları barədə məlumat veriblər.

Konfransda yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı çox ciddi addımlar atıldığını, yeni islahatların həyata keçirildiyini və bu tədbirlərin ixrac və yerli istehsal üçün yeni imkanlar yaradacağına əminliyini ifadə edib. 2017-ci ildə görüləcək işlərlə bağlı tapşırıqlar verən dövlətimizin başçısı, ilk növbədə, infrastruktur layihələrinin icrasının davam etdirilməsinin, xüsusilə də bölgələrdə elektrik təsərrüfatının təkmilləşdirilməsi, yeni xətlərin çəkilməsi, bütün regionların dayanıqlı enerji ilə təmin edilməsi üçün əlavə tədbirlər görülməsinin vacibliyini diqqəyə çatdırıb. Bildirilib ki, bu il "Azəriqaz" tərəfindən ən azı 80 kəndə qaz verilməli, yeni qaz xətləri çəkilməli və ilin sonuna qədər qazlaşdırma səviyyəsi 94 faizə çatdırılmalıdır.

Dövlət başçısı bu il 40 kənd yolu layihəsinin icrası, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin davam etdirilməsinin vacibliyini də diqqətə çatdırıb. Qlobal regional layihələrin, Bakı-Tbilisi-Qars, Şimal-Cənub layihələrinin icra olunduğunu xatırladıb.

Son illər ərzində məcburi köçkünlər üçün 100-ə yaxın qəsəbə inşa edildiyini bildirən Azərbaycan Prezidenti 200 mindən çox məcburi köçkünün həmin binalarda yerləşdirildiyini, ümumilikdə, son illərdə məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması məqsədilə 5 milyard manatdan çox vəsait ayrıldığını vurğulayıb. Bu işin davam etdiriləcəyini, 2017-ci ildə Bakıda yataqxanalarda məskunlaşan köçkünlərin köçürülməsi prosesinə başlanılacağını, digər layihələrin həyata keçiriləcəyini diqqətə çatdırıb: "Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə bağlı müvafiq sərəncam imzalanmışdır. Bu layihənin icra edilməsi çox böyük rəmzi məna daşıyır. Bu, tarixi hadisədir. Biz işğaldan azad edilmiş kəndə sakinləri qaytarırıq. Mən çox şadam ki, Cocuq Mərcanlı kəndinin sakinləri buna çox böyük həvəslə, böyük maraqla yanaşırlar, o günü səbirsizliklə gözləyirlər. Əminəm ki, biz Cocuq Mərcanlı kəndini qısa müddət ərzində yenidən quracağıq".

Prezident İlham Əliyev ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün əlavə işlərin görülməli olduğunu, biznes qurumlarının bu sahədə daha fəal çalışmalarını vacib məsələlərdən hesab etdiyini vurğulayıb. Yeni iri fermer təsərrüfatlarının fəaliyyəti nəticəsində buğda ilə təminetmənin artırılmasının mümkünlüyünü qeyd edib. Kənd təsərrüfatının müxtəlif sahələri, o cümlədən pambıqçılıq, üzümçülük və şərabçılıq, baramaçılıq, zeytunçuluq, çayçılıq, arıçılıq, tütünçülük və fındıqçılığın inkişaf etdirilməsi, şəkər çuğunduru, meyvə - xurma, nar bağlarının salınması üçün artıq müvafiq göstərişlər verildiyini bildirib. Dövlət başçısı qeyd edib ki, bu sahələrin inkişafı ilə bağlı bütün lazımi tədbirlər görülür.

Ölkəmizin artıq post-neft dövründə yaşadığını qeyd edən Prezident İlham Əliyev dövlət qurumlarına daha neft amilinə bel bağlamamağı tövsiyə edib.

Dövlət başçısı aparılan bu tədbirlərin insanların daha da yaxşı yaşaması üçün görüldüyünü xatırladaraq məmur-vətəndaş münasibətlərinə də toxunub: "Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir. Özünü təvazökar aparmalıdır. Özü və ailə üzvləri nümunə olmalıdır. Rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır. Məmur, bax, belə olmalıdır, dediyim kimi. Mən hər bir dövlət məmurunu ya icra başçısı, ya başqa vəzifəyə təyin edəndə göstəriş verirəm ki, get insanlara qulluq et, xidmət göstər, dövlətə xidmət et, təmiz işlə. Amma əfsuslar olsun ki, bəziləri nəticə çıxarmırlar. Onların da cəzası verilir və veriləcək".

Xoşagəlməz hallara son qoyulmalı olduğunu deyən Azərbaycan Prezidenti "ASAN xidmət"in timsalında idarəetmədə yeni yanaşmaların tətbiqinin genişləndiyini vurğulayıb: "ASAN xidmət"i biz yaratdıq, artıq neçə ildir ki, işləyir. Bir dənə də olsun oradan şikayət yoxdur. Hər halda mən eşitməmişəm. Bəyənilmə əmsalı 98 faizdir. On üç milyon müraciət olunub. Bizim əhalimizin sayı hələ 10 milyona çatmayıb, 13 milyon müraciət olub. Bu, ictimai xidmətlər sahəsində bir yenilikdir. Yəni bu, nəyi göstərir? Birincisi, bizim iradəmizi və siyasətimizi göstərir. İkincisi isə onu göstərir ki, bu cür işləmək mümkündür. Əgər orada mümkündürsə, deməli, hər yerdə mümkündür. Ona görə məmur-vətəndaş münasibətləri, bu məsələlər cəmiyyət üçün, inkişaf üçün çox önəmlidir. Burada hər şey məmurlardan asılıdır. Onlar dediyim kimi işləməlidirlər. Əgər öz işində nöqsana, yaxud da pozuntuya yol verərsə, onlar lazımi səviyyədə cəzalandırılacaqlar".

# Əldə edilən uğurlarla yanaşı, problem və çatışmazlıqlar da müzakirə olunub



8-ci mikrorayon, 135 saylı tam orta məktəbin akt zalında Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 nömrəli Sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin və Binəqədi bələdiyyəsinin 2016-cı ildəki fəaliyyətinə dair hesabat yığıncağı keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, Milli Məclisin deputatı, Regional Məsələlər Komitəsinin üzvü Kamran Bayramov, Binəqədi RİH başçısının müavinləri, Aparatının şöbə müdirləri və məsul işçiləri, Nərimanov bələdiyyəsinin sədri, Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri, Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının sədri Təhmiraz Tağıyev, Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının sədri Hümbət Hüseynov, Bələdiyyələrlə İş Mərkəzinin baş məsləhətçisi Hafiz Əliyev, Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının icraçı katibi, Mərkəzi Seçki Komissiyasının üzvü Tofiq Həsənov, Almaniya Əməkdaşlıq Təşkilatının nümayəndəsi Fidan Qasımova, "Belediyye.info" saytının rəhbəri Vüqar Tofiqli, hüquq-mühafizə orqanlarının mikrorayonlar üzrə məsul əməkdaşları, rayonun kommunal xidmət müəssisələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələri və 7,8 və 9-cu mikrorayon sakinləri iştirak ediblər.

Hesabat yığıncağını giriş nitqi ilə açan Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov ölkədə və rayonda görülən işlər barədə ətraflı məlumat verib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətində keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunan icra başçısı bildirib ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də davam edib və dövlət başçısının "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli Fərmanının və digər strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

Daha sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 nömrəli Sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Dilbər Şükürova və Binəqədi bələdiyyəsinin sədri Sitarə Cabbarlı 2016-cı il ərzində ərazidə görülən işlər barəsində geniş məruzə ilə çıxış ediblər. Hər iki hesabat məruzəsində ötən il görülən işlər nümayəndəliyin və bələdiyyənin fəaliyyətində əldə edilən uğurlar, mövcud çətinliklər, problemlər və çatışmazlıqlardan ətraflı söhbət açılıb, qarşıda duran vəzifələr ətraflı təhlil olunub.

Hesabat yığıncağında məruzələr ətrafında mikrorayon sakinləri Vaqif Mustafayev, Sona Quliyeva və İlqar Mehdiyev çıxış edərək, hər iki hesabata öz münasibətlərini bildirməklə 2017-ci ildə qarşıda duran vəzifələrin icrası ilə əlaqədər öz təklif və tövsiyələrini səsləndiriblər.

Hesabat yığıncağında çıxış edən Milli Məclisin deputatı Kamran Bayramov bu cür müzakirələrin birgə təşkilinin təqdirəlayiq hal olduğunu, belə bir təcrübənin yayılmasının zəruriliyini vurğulayıb. O, Binəqədi rayon bələdiyyələrinin fəaliyyəti barədə danışaraq, müvafiq göstəricilərə görə onların ölkə miqyasında ilk üçlükdə olduğunu qeyd edib. Millət vəkili bələdiyyələrin fəaliyyətində mövcud problemlərdən də danışıb, onların həlli istiqamətində tövsiyələrini diqqətə çatdırıb.

Tədbirdə yekun nitqi ilə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov hər iki qurumun fəaliyyətindəki nöqsan və çatışmazlıqlara toxunaraq, onların həlli istiqamətində öz tapşırıq və tövsiyələrini verib.

Bələdiyyələrin, o cümlədən Binəqədi bələdiyyəsinin fəaliyyətində, bələdiyyə vergi və rüsumlarının yığılmasında, vətəndaşları narahat edən yerli əhəmiyyətli məsələlərin həllində, sakinlərin müraciətlərinə baxılmasında bir sıra nöqsanlara yol verildiyini diqqətə catdırıb. Vətəndaşların müraciətlərinə baxılması, təkmilləşdirilməsi istiqamətində tədbirlər görülsə də, vətəndaş məmnunluğunu tam təmin etmək mümkün olmadığını deyən icra hakimiyyətinin başçısı yerlərdə vətəndaşların qarşılanması və yönləndirilməsi, onların qəbulunun təşkili, müraciətlərinə baxılması və qanuna müvafiq cavablandırılması istiqamətində işin yaxşılaşdırılmasına və təkmilləşdirilməsinə ciddi ehtiyac olduğunu bildirib. Qeyd olunub ki, əhali ilə səyyar görüşlərin keçirilməsi daha da intensivləşdirilməli, daim əhali arasında olmalı, onların problemlərinə qayğı ilə yanaşılmalı və aradan qaldırılması üçün tədbirlər görülməlidir.

Məişət tullantılarının yığışdırılması və daşınması, əhaliyə digər kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində ciddi tədbirlər görülməlidir. Dövlət və bələdiyyə qulluğunda çalışan, məsul vəzifə tutan əməkdaşlara, onların bilik və bacarığının artırılmasına, etik davranış qaydalarına ciddi əməl olunmasına tələb artırılmalı, hər bir müəssisə rəhbəri mədəniyyəti və işgüzarlığı ilə nümunə olmalıdır. Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli,onların aradan qaldırılmasına dair sistemli tədbirlər hazırlanaraq həyata keçirilməli, bələdiyyə və nümayəndəliyin fəaliyyətində şəffaflıq artırılmalıdır.

Yekunda hər iki müzakirə olunan məsələ barədə müvafiq qərar qəbul edilib və qeyd olunub ki, 2016-cı ilin yekunları ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti başçısının hesabat məruzəsində bu nöqsan və çatışmazlıqlara xüsusi yer ayrılmalı, ciddi müzakirələr aparılmalı, konkret tədbirlər müəyyənləşdirilməlidir.

Hesabat yığıncağının sonunda "Ən yaxşı məhəllə komitəsi", "Ən intizamlı vergi ödəyicisi" və "Bələdiyyənin dostu" mükafatına layiq görülənlər Binəqədi bələdiyyəsi tərəfindən təltif olunublar.

# İctimai rəydə səslənən fikirlərə həssas yanaşılmalıdır

## Məktəbəqədər təhsil müəssisələrində neqativ halların qarşısı qətiyyətlə alınmalıdır



Binəqədi rayonunda fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin 2016-cı ildəki fəaliyyətinə dair iclası keçirilib. Binəqədi Rayon İcra Hakimiyyətinin akt zalında keçirilən iclasda RİH başçısı Xaləddin İsgəndərov, müavini Aygün Əliyeva, Aparatın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, həmin şöbənin baş məsləhətçisi Jalə Sadıqova və rayonun məktəbəqədər təhsil müəssisələrinin müdirləri iştirak ediblər.



İclasda çıxış edən Xaləddin İsgəndərov, bütün sahələrdə olduğu kimi, Azərbaycan dövləti tərəfindən uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə yüksək diqqət və qayğı göstərildiyini diqqətə çatdırıb. Rayon icra hakimiyyətinin başçısı son illərdə respublikanın məktəbəqədər müəssisələrinin yenidən qurulmasına, yenilərinin tikilməsinə, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrıldığını bildirərək vurğulayıb ki, bu istiqamətdə davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişikliklərinin baş verməsi, inkişafyönümlü proqram və layihələrin həyata keçirilməsi dövlətimizin başçısı cənab İlham Əliyevin təhsilə və məktəbəqədər təhsil müəssisələrinə müntəzəm diqqət və qayğısı sayəsində mümkün olub. Xüsusilə qeyd edilib ki, Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə inşa olunan, təmir edilən müasir standartlara uyğun bağçalar gələcəyimiz olan uşaqların sağlam inkişafına hesablanmış uzaqgörən siyasətin uğurlu nəticələridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 10 yanvar 2017-ci il tarixdə keçirilmiş Nazirlər Kabinetinin 2016-cı ilin yekunlarına həsr olunmuş iclasında və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın 26 dekabr 2016-cı il tarixdə keçirilmiş müşavirəsində səsləndirilən fikirlərə toxunan Xaləddin İsgəndərov məktəbəqədər təhsil müəssisələrində də korrupsiya hallarının baş verməsinin , bəzi bağçalarda valideynlərdən əsassız ödənişlərin tələb edilməsinin ictimaiyyət arasında ciddi narazılıq yaratdığını dilə gətirib. Bu baxımdan, məktəbəqədər təhsil müəssisələrində korrupsiya və digər mənfi halların qarşısının alınması, ümumi nəzarətin təşkili, bağçalarla bağlı ictimai rəydə səslənən fikirlərə həssas yanaşılması və digər məsələlər ciddi araşdırılmalı və müvafiq tədbirlər həyata keçirilməlidir. Eyni zamanda, bağçalarla bağlı sakinlərdən daxil olan şifahi və yazılı şikayətlərin araşdırılması və mənfi halların aradan qaldırılması məqsədilə təkliflərin hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim edilməli və bütün sahələrdə olduğu kimi, məktəbəqədər təhsil müəssisələrində də korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistemli tədbirlər hazırlanaraq həyata keçirilməli, şəffaflıq artırılmalıdır.

# Hər bir dövlət orqanı tənqidlərdən ciddi nəticə çıxarmalıdır

Binəqədi rayonu M.Ə.Rəsulzadə qəsəbəsində fəaliyyət göstərən 100 saylı orta məktəbin akt zalında RİH başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin və M.Ə.Rəsulzadə bələdiyyəsinin 2016-cı ildəki fəaliyyətinə dair hesabat yığıncağı keçirilib. Tədbirdən öncə qəsəbə ərazisində fəaliyyət göstərən müəssisələrin istehsal etdiyi məhsullardan ibarət sərgiyə baxış olub. Hesabat yığıncağında Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısı Aparatının şöbə müdirləri və məsul işçiləri, Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının məsul işçisi Tofiq Həsənov, rayonun kommunal xidmət müəssisələrinin, qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan Binəqəqdi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov bildirib ki, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə və bələdiyyələrin fəaliyyəti barədə mövcud qanunvericiliyə uyğun olaraq, hər bir nümayəndəlik ilin yekunu üzrə öz fəaliyyəti haqqında rayon icra hakimiyyəti başçısına, bələdiyyələr isə seçicilər qarşısında hesabat verməlidir və bugünkü tədbir hesabatların müzakirəsi üçün təşkil olunub. Hesabat ilində ölkədə və rayonda görülən işlər barədə qısa məlumat verən RİH başçısı 2017-ci ilin "İslam həmrəyliyi ili" elan olunmasının ölkəmiz və dünya üçün əhəmiyyətini vurğulayıb, rayonda bu istiqamətdə müxtəlif məzmunlu tədbirlərin keçirilməsi məqsədilə təkliflərin hazırlanmasına dair tapşırıqlarını verib.



Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Mübariz Məmmədov və M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov 2016-cı il ərzində qəsəbədə görülən işlər barədə geniş məruzə ilə çıxış ediblər. Hesabat yığıncağında məruzələr ətrafında qəsəbə sakinləri Şahvələd İbrahimov, Yaqub Əlizadə və Əli Kazımov çıxış edərək, hər iki hesabata öz münasibətlərini bildirməklə 2017-ci ildə qarşıda duran vəzifələrin icrası ilə əlaqədər öz təklif və tövsiyələrini səsləndiriblər.

Yığıncaqda yekun nitqi ilə çıxış edən Xaləddin İsgəndərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətində keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq qeyd edib ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də davam etmiş və dövlət başçısı İlham Əliyevin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli Fərmanının və digər strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır. İcra hakimiyyətinin başçısı hər iki qurumun fəaliyyətində mövcud olan nöqsan və çatışmazlıqlara toxunaraq vurğulayıb ki, qəsəbədə torpaqlardan istifadənin vəziyyəti qənaətbəxş deyildir. Belə ki, qəsəbə ərazisində torpaqların zəbt edilməsi, qanunsuz tikinti işlərinin aparılması, tullantılarla çirkləndirilməsi və yararsız hala salınması halları qalmaqda hələ də davam edir, qanunsuz tikinti işlərinin qarşısının alınması üçün görülən tədbirlər arzuolunan səviyyədə deyil. Bələdiyyələrin, o cümlədən M.Ə.Rəsulzadə bələdiyyəsinin fəaliyyətində, bələdiyyə vergi və rüsumlarının yığılmasında, vətəndaşları narahat edən yerli əhəmiyyətli məsələlərin həllində, sakinlərin müraciətlərinə baxılmasında nöqsanlara yol verilir. Bildirilib ki, vətəndaşların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi istiqamətində müəyyən tədbirlər görülsə də vətəndaş məmnunluğunu tam təmin etmək mümkün olmamışdır. Yerlərdə vətəndaşların müraciətlərlə əlaqədar yönləndirilməsi, onların qəbulunun təşkili, müraciətlərinə baxılması və qanunamüvafiq cavablandırılması istiqamətində işin daha da yaxşılaşdırılmasına və təkmilləşdirilməsinə ciddi ehtiyac duyulur.

Vurğulanıb ki, əhali ilə səyyar görüşlərin keçirilməsi daha da yaxşılaşdırılmalı, daim əhali arasında olmalı, onların problemlərinə qayğı ilə yanaşılmalı və aradan qaldırılması üçün tədbirlər görülməlidir. Məişət tullantılarının vaxtlı-vaxtında yığışdırılması və daşınması, əhaliyə digər kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində müvafiq tədbirlər görülməlidir.

Qeyd olunub ki, bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistemli tədbirlər hazırlanaraq həyata keçirilməli, bələdiyyə və nümayəndəliyin fəaliyyətində şəffaflıq artırılmalıdır.

Yığıncağın sonunda müzakirə olunan məsələlər barədə müvafiq qərar qəbul olunub və qeyd edilib ki, 2016-cı ilin yekunları ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti başçısının hesabat məruzəsində bu nöqsan və çatışmazlıqlara xüsusi yer ayrılmalı, ciddi müzakirələr aparılmalı, konkret tədbirlər müəyyənləşdirilməlidir.

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Məcburi köçkünlərlə bağlı Fərmanın icrası ilə əlaqədar müşavirə

Yanvarın 25-də Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə Azərbaycan Respublikası Prezidentinin "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" 23 yanvar 2017-ci il tarixli Fərmanının icrası ilə əlaqədar müşavirə keçirilib. İcra hakimiyyətinin inzibati binasında keçirilən müşavirədə "Azərişıq" ASC-nin İnkişaf və İnvestisiya Departamentinin direktoru Toğrul Rəhimov, Binəqədi Rayon Polis İdarəsinin rəisi Namiq İsmayılov, rayon prokuroru Nazim İmanov, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi Azər Məmmədov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Binəqədi rayonu üzrə sektorunun müdiri Abuş Məmmədov və rayon Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Azad Mustafayev iştirak ediblər.



Müşavirəni giriş sözü ilə açan Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov tədbirin mahiyyəti barədə məlumat verib.

Sonra "Azərişıq" ASC-nin Departament direktoru Toğrul Rəhimov çıxış edərək, fərmandan irəli gələn vəzifələrin icrası ilə əlaqədar səhmdar cəmiyyəti tərəfindən görülən hazırlıq işləri barədə danışıb. T.Rəhimov görüləcək işlərdə Binəqədi Rayon İcra Hakimiyyətinin, eləcə də müvafiq strukturların köməyinə ehtiyac olduğunu vurğulayaraq, məsələnin həllinə operativ yanaşdıqlarına görə rayonun müvafiq strukturlarının rəhbərliyinə təşəkkürünü bildirib.

Müzakirələrdə Binəqədi Rayon Polis İdarəsinin rəisi Namiq İsmayılov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Binəqədi rayonu üzrə sektorunun müdiri Abuş Məmmədov iştirak edərək, öz təklif və fikirlərini bildiriblər.

Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov müşavirəyə yekun vuraraq, fərmanın icrası ilə əlaqədar yerlərdə əhali arasında izahat və maarifləndirmə işlərinin aparılması və görüləcək işlərin operativliyini təmin etmək məqsədilə RİH başçısının sərəncamı ilə xüsusi işçi qrupun yaradılması, icra hakimiyyəti başçısının müavinləri və şöbə müdirləri arasında ərazilər üzrə bölgü aparılması barədə, habelə müzakirə olunan digər məsələlərlə əlaqədar aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələrini verib.

# Kommunal sahədə əhaliyə xidmətin keyfiyyəti yaxşılaşdırılmalıdır

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, RİH başçısının birinci müavini İlqar Süleymanov, Aparatın Rayon təsərrüfatı şöbəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən Elşad Rəhimov Binəqədi rayon Sukanal İdarəsinin vəzifəli şəxsləri ilə görüşüblər.



İlqar Süleymanov 2016-cı il ərzində görülən və cari ildə görülməsi nəzərdə tutulan işlərdən danışaraq iclas iştirakçılarını müzakirələrdə fəal iştirak etməyə dəvət edib.

Tədbirdə su və kanalizasiya sahəsindəki mövcud problemlərlə bağlı vətəndaş müraciətləri geniş müzakirə edilib, vətəndaşların qəbul günləri, qəbul qaydaları, telefon-zəng mərkəzlərinin fəaliyyəti təhlil olunub, bu və ya digər sahələrdə mövcud olan problemlərin aradan qaldırılması ilə bağlı tövsiyələr verilib.

İlqar Süleymanov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq vurğulayıb ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də davam etmiş və dövlət başçısının "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli Fərmanının və digər strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

Bildirilib ki, kommunal xidmət müəssisələrində əhaliyə xidmətin keyfiyyətinin yaxşılaşdırılması, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi üçün ciddi tədbirlər görülməlidir.

Görüşdə həmçinin qeyd olunub ki, 2016-cı il ərzində rayon üzrə əhalinin içməli su təchizatının və kanalizasiya şəbəkəsinin yaxşılaşdırılması istiqamətində bir sıra zəruri işlər həyata keçirilmişdir. Rayon ərazisində müxtəlif ünvanlarda ümumilikdə 977 p/m müxtəlif diametrli yeni su xətti çəkilmiş, 241 p/m kanalizasiya xətti dəyişdirilərək yenisi ilə əvəz edilmiş və sakinlərin istifadəsinə verilmişdir. Su xətləri üzrə 15 ədəd yeni siyirtmə quraşdırılmış, müxtəlif markalı 19 ədəd nasos təmir edilmiş, 7 ədəd elektrik mühərriki təmir olunmuşdur. Hesabat dövrü ərzində əhalini keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə müxtəlif ünvanlarda su xətlərində 2995, kanalizasiya şəbəkəsində 5093 qəzanın qarşısı alınmış, həmçinin 5620 p/m müxtəlif diametrli kanalizasiya xətti xüsusi təyinatlı texnika ilə, 36520 p/m xətt isə mexaniki üsulla təmizlənmiş, 21 ədəd su anbarı yuyulmuşdur. Bundan əlavə, əhalinin fasiləsiz içməli su təchizatının yaxşılaşdırılması məqsədilə "Bakı şəhəri və onun ətraf qəsəbələrinin sosial iqtisadi inkşafına dair" Dövlət Proqramına uyğun olaraq, Binəqədi rayonunun bütün qəsəbələrinin su və kanalizasiya sahəsində mövcud olan problemlərinin "Master Plan" əsasında əsaslı həlli nəzərdə tutulur.

Bildirilib ki, 2016-cı ilin oktyabr ayında yağan güclü yağışlar nəticəsində Xırdalan kollektoru daşmış və rayonun Biləcəri, Binəqədi, Rəsulzadə və Xocəsən qəsəbələri ərazisində minlərlə evin həyətyanı sahəsi, zirzəmisi və yaşayış hissələri su altında qalmışdır. Tədbirdə Bakı şəhəri ərazisində yağan yağıntılarla bağlı subasan ərazilərdə gələcəkdə zəruri tədbirlər görülməsi məqsədilə dövlət başçısının sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin rəhbərliyi altında işçi qrupun yaradıldığı və aidiyyəti qurumların rəhbərlərinin iştirakı ilə geniş müzakirələr həyata keçirildiyi, işçi qrupun təklifləri əsasında subasma ərazilərində problemin əsaslı həllinin nəzərdə tutulduğu vurğulanıb.

Görüşdə, həmçinin, bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistemli və institusional xarakterli tədbirlər hazırlanaraq həyata keçirilməli, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması barəsində də danışılıb. Bildirilib ki,. korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə kadrların düzgün seçilib yerləşdirilməsi məsələsi mühüm əhəmiyyət kəsb edir. İşə qəbul edilən şəxslər peşəkar, yüksək bilikli, məsuliyyətli, müasir düşüncəli və mədəni davranışa malik olmalıdır. Dövlət qurumlarının rəhbərləri tabeliyində olan hər bir işçini tanımalı, onları narahat edən problemləri bilməli və fəaliyyətlərini diqqət mərkəzində saxlamalıdırlar. Vəzifələrinin icrası ilə bağlı bir araya sığmayan, dövlət orqanlarının nüfuzunu aşağı sala biləcək hərəkətlərin qarşısı qətiyyətlə alınmalıdır. Hər bir dövlət qurumunun rəhbəri isə öz əməkdaşları üçün vicdanlılıq nümunəsi olmalıdır.

Görüşün sonunda qeyd edilib ki, 2016-cı ilin yekunları ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti başçısının hesabat məruzəsində bu nöqsan və çatışmazlıqlarla bağlı xüsusi yer ayrılması, ciddi müzakirələrin aparılması, qısa zamanda konkret tədbirlərin müəyyənləşdirilməsi nəzərdə tutulub.

# Problemlərin aradan qaldırılması üçün sistemli tədbirlər həyata keçirilməlidir

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2 nömrəli Sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin 2016-cı ildəki fəaliyyətinə dair hesabat yığıncağı keçirilib. Rayonda fəaliyyət göstərən 157 saylı məktəbin akt zalında təşkil olunan tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, Binəqədi RİH başçısı Aparatının şöbə müdirləri və məsul işçiləri, rayonun kommunal xidmət müəssisələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələri, 6-cı və 9-cu mikrorayon sakinləri iştirak ediblər.



Yığıncağı giriş nitqi ilə açan İlqar Süleymanov tədbirin mahiyyəti barədə məlumat verərək müzakirə olunacaq məsələnin gündəliyini elan edib. Sonra RİH başçısının birinci müavini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə 12 yanvar 2017-ci il tarixdə keçirilmiş rayon müşavirəsində səsləndirilən fikirlərə toxunaraq qeyd edib ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də davam etmiş və dövlət başçısının "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli Fərmanının və digər strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

İ.Süleymanov ötən hesabat ilində ölkədə və rayonda görülən işlər barədə qısa məlumat verdikdən sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2 nömrəli Sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Ləman Əliyeva 2016-cı il ərzində sahə ərazisində görülən işlər barədə geniş məruzə ilə çıxış edib. O, ötən hesabat ilində həyata keçirilən layihələr, əldə olunan nailiyyətlər, vətəndaşların müraciətlərinə baxılması, vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində göstərdikləri səylər, həmçinin 2017-ci ildə görülməsi nəzərdə tutulan işlər və həllivacib məsələlər barədə ətraflı məlumat verib.

Məruzə ətrafında ərazi sakinləri Aslan Mehdiyev, Hasil Tağıyev və Qədir Bağırzadə çıxış edərək, hesabata öz münasibətlərini bildirməklə 2017-ci ildə qarşıda duran vəzifələrin icrası ilə əlaqədər öz təklif və tövsiyələrini səsləndiriblər.

Müzakirələrdə çıxış edənlər əhalini narahat edən məsələlərə, xüsusilə 9-cu mikrorayon ərazisində qış aylarında mənzillərdə istilik təzyiqinin az olması, son günlər binalardan liftlərin ehtiyat hissələrinin oğurlanması hallarına, 6-cı mikrorayon ərazisində təmir işləri aparılmamış binaların dam örtüyü və fasadlarının təmiri məsələlərinə toxunaraq, qaldırılan problemlərin həlli yolları barədə fikir mübadiləsi və müzakirələr aparıblar.

Tədbirdə yekun nitqi ilə çıxış edən İlqar Süleymanov mövcud nöqsan və çatışmazlıqlara toxunaraq bildirib ki, ərazidə torpaqlardan istifadənin vəziyyəti və qanunsuz tikinti işlərinin qarşısının alınması üçün görülən tədbirlər qənaətbəxş deyildir. Qeyd olunub ki, yerlərdə vətəndaşların müraciətlərlə əlaqədar qarşılanması və yönləndirilməsi, onların qəbulunun təşkili, müraciətlərinə baxılması və qanunamüvafiq cavablandırılması istiqamətində işin yaxşılaşdırılmasına və təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. Diqqətə çatdırılıb ki, əhali ilə səyyar görüşlərin keçirilməsi daha da intensivləşdirilməli, daim əhali arasında olmalı, onların problemlərinə qayğı ilə yanaşılmalı və aradan qaldırılması üçün operativ tədbirlər görülməlidir.

Qeyd olunub ki, dövlət qulluğunda çalışan, məsul vəzifə tutan əməkdaşların bilik və bacarığının artırılmasına, etik davranış qaydalarına ciddi əməl olunmasına tələb artırılmalıdır. Hər bir müəssisə rəhbəri əhali və tabeçiliyində işləyən əməkdaşlarla münasibətdə öz vicdanlılığı, mədəniyyəti və işgüzarlığı ilə nümunə olmalıdır.

Məişət tullantılarının yığışdırılması və daşınması, əhaliyə digər kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində ciddi tədbirlər görülməlidir.

Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistemli tədbirlər hazırlanaraq həyata keçirilməli, nümayəndəliyin fəaliyyətində şəffaflıq artırılmalıdır.

Sonda müzakirə olunan məsələlər barədə müvafiq qərar qəbul edilib və qeyd olunub ki, 2016-cı ilin yekunları ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti başçısının hesabat məruzəsində bütün nöqsan və çatışmazlıqlara xüsusi yer ayrılmalı, ciddi müzakirələr aparılmalı, konkret tədbirlər müəyyənləşdirilməlidir.

# Məcburi köçkünlərin mənzilləri sayğaclaşdırılır

"Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2017-ci il tarixli Fərmanının icrası ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, RİH başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən baş məsləhətçi (mühəndis) Elşad Rəhimov, "Azərişıq" ASC-nin Bağlar Enerji Təchizatı və Satışı İdarəsinin əməkdaşları ilə birlikdə Novxanı bağlar massivində yerləşən "Şəfəq" pansionatında məskunlaşmış məcburi köçkün ailələrinin mənzillərinin sayğaclaşdırılması ilə bağlı görüş keçirilib.



Görüş zamanı sözügedən fərmandan irəli gələn məsələlər ətrafında izahat və təbliğat işləri aparılıb. Sonra ərazidə sayğaclaşdırma işlərinə başlanılıb.

# Sakinlər arasında izahat işləri aparılır

Ötən ilin dekabr ayının 26-da Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının keçirdiyi müşavirədə səsləndirilən irad və təkliflərin icrası ilə əlaqədar Binəqədi rayonunun Xocəsən qəsəbəsində yerləşən Avtovağzal və metronun "Depo" stansiyasının tikintisi ərazisinə düşən hissəsində yerləşən yaşayış evlərinin sökülməsi ilə bağlı adı çəkilən ərazilərdə əhali arasında geniş izahat işləri aparmaq məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanovun sədrliyi ilə Qərargah yaradılıb.



Bu günlərdə sözügedən ərazidə Qərargah üzvləri ilə sakinlərin növbəti görüşü keçirilib. Görüşdə RİH başçısının birinci müavini İlqar Süleymanov, Bakı Metropoliteninin məsul işçiləri, icra hakimiyyətinin Xocəsən qəsəbəsi üzrə inzibati ərazi dairəsi üzrə nümayəndəsi və Xocəsən bələdiyyəsinin vəzifəli şəxsləri iştirak ediblər. Görüş zamanı söküntü ilə əlaqədar sakinlərə kompensasiyanın hesablanması və verilməsi qaydaları izah edilib, bu sahədə mövcud qanunvericilik barədə vətəndaşlara ətraflı məlumat verilib. İlqar Süleymanov və görüşdə iştirak edən digər rəsmi şəxslər sakinləri maraqlandıran sualları cavablandırıb və onları narahat edən məsələlərə aydınlıq gətiriblər. Vətəndaşlar onlara verilən cavablardan və izahatlardan razı qaldıqlarını bildiriblər.

# Məşğulluğun təminatına diqqət artırılmalıdır

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılovun iştirakı ilə rayon Məşğulluq Mərkəzində iclas keçirilib. Tədbirdə Binəqədi RİH başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyev, Mərkəzin direktoru Məhəmməd Hacıyev və əməkdaşları iştirak ediblər.



İclasda rayonun sosial-iqtisadi vəziyyəti, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması istiqamətində müzakirələr aparılıb. İclacda çıxış edən Vüsar İsmayılov bildirib ki, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" ölkəmizin neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırmanın inkişafı, ixtisaslaşmış turizm sənayesinin inkişafı, logistika və ticarətin inkişafı, uyğun qiymətə mənzil təminatının inkişafı və s. iqtisadiyyatın yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunan V.İsmayılov qeyd edib ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də uğurla davam etmiş və dövlət başçısı tərəfindən strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

İcra hakimiyyəti başçısının müavini müzakirələr zamanı əmək bazarının tənzimlənməsi, ölkə vətəndaşlarının məşğulluğunun təminatı, işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində aparılan işlər haqqında da fikirlərini səsləndirib. O, həmçinin, 2016-cı ildə qeyri-neft sektorunun və sahibkarlıq fəaliyyətinin inkişafı nəticəsində yeni iş yerlərinin yaradılması, o cümlədən "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 aprel tarixli 1941 nömrəli sərəncamının icrası ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiya iclasında təsdiq edilmiş "İşaxtaran vətəndaşların özünüməşğulluq fəaliyyətinin təşkili tələbləri" əsasında Məşğulluq Mərkəzi tərəfindən görülmüş işlərlə yaxından tanış olub. Özünüməşğulluq proqramında iştirak etmək üçün müraciət edən vətəndaşların şəxsi biznesinin qurulması, o cümlədən inkişaf etdirilməsi üzrə bilik və bacarıqlara yiyələnmələri məqsədilə təşkil olunmuş təlimlərlə əlaqədar mərkəzin əməkdaşları ilə birgə geniş fikir mübadiləsi aparıb.

Görüş zamanı V.İsmayılov vurğulayıb ki, vətəndaşların şifahi müraciətləri zamanı dövlət qulluqçularının etik davranış qaydaları çərçivəsində ünsiyyət qurulmalı və edilən müraciətlə bağlı əhaliyə düzgün istiqamət verilməlidir. Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistem və institusional xarakterli tədbirlər hazırlanaraq həyata keçirilməli, dövlət orqanlarının fəaliyyətində şəffaflıq artırılmalıdır. Qeyd olunub ki, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə kadrların düzgün seçilib yerləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. İşə qəbul edilən şəxslər peşəkar, yüksək bilikli, məsuliyyətli, müasir düşüncəli və mədəni davranışa malik olmalıdır. Dövlət qurumlarının rəhbərləri tabeliyində olan hər bir işçini tanımalı, onları narahat edən problemləri araşdırmalı və fəaliyyətlərini diqqət mərkəzində saxlamalıdırlar. Bildirilib ki, vəzifələrinin icrası ilə bağlı bir araya sığmayan, dövlət orqanlarının nüfuzunu aşağı sala biləcək hərəkətlərin qarşısı qətiyyətlə alınmalıdır. Hər bir dövlət qurumunun rəhbərləri isə öz əməkdaşları üçün vicdanlılıq nümunəsi olmalıdır.

# Rayonda fəaliyyət göstərən dövlət qurumları ilə görüşlər davam edir

## Əhalinin işgüzarlıq fəaliyyəti, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzindədir

Ötən həftə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılovun iştirakı ilə rayon Statistika Şöbəsində iclas keçirilib. Tədbirdə Binəqədi RİH başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyev, Statistika Şöbəsinin müdiri Hamlet Məmmədov və əməkdaşları iştirak ediblər.



İclasda rayonun sosial-iqtisadi vəziyyəti, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması istiqamətində müzakirələr aparılıb.



Tədbirdə çıxış edən Vüsar İsmayılov bildirib ki, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırmanın inkişafı, ixtisaslaşmış turizm sənayesinin inkişafı, logistika və ticarətin inkişafı, uyğun qiymətə mənzil təminatının inkişafı və s. ölkəmizdə iqtisadiyyatın yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayacaqdır.

İcra hakimiyyəti başçısının müavini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq qeyd edib ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də uğurla davam etmiş və dövlət başçısı tərəfindən strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

V.İsmayılov statistika şöbəsi tərəfindən rayonda görülən işlərlə bağlı müzakirələr aparmış, o cümlədən rayon ərazisində demoqrafiya və sosial-iqtisadi statistika və digər sahələrin təhlilinin aparılması yolları ilə yaxından tanış olmuşdur. RİH başçısının müavini hesablanan göstəricilərin dəqiqlik və düzgünlük dərəcəsinin, istifadə olunan statistik modellərin uyğunluq səviyyəsinin həqiqi qiymətinə uyğunluğu, istifadəçilər tərəfindən tələb olunan məlumatların uyğunluğu, nəşrlərin asan əldə edilə bilməsi və vaxtlı-vaxtında istifadəçiyə çatdırılması, statistik proseslərin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, sənədləşdirmə işlərinin vahid standartlar əsasında aparılması statistikada ən vacib məsələlərdən biri olduğunu qeyd etmişdir.

Vurğulanmışdır ki, vətəndaşların şifahi müraciətləri zamanı dövlət qulluqçularının etik davranış qaydaları çərçivəsində ünsiyyət qurulmalı və edilən müraciətlə bağlı vətəndaşlara düzgün istiqamət verilməlidir. Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistemli və institusional xarakterli tədbirlər hazırlanaraq həyata keçirilməli, dövlət orqanlarının fəaliyyətində şəffaflıq artırılmalıdır. Qeyd olunmuşdur ki, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə kadrların düzgün seçilib yerləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. İşə qəbul edilən şəxslər peşəkar, yüksək bilikli, məsuliyyətli, müasir düşüncəli və mədəni davranışa malik olmalıdırlar. Dövlət qurumlarının rəhbərləri tabeliyində olan hər bir işçini tanımalı, onları narahat edən problemləri bilməli və fəaliyyətlərini diqqət mərkəzində saxlamalıdırlar. Vəzifələrinin icrası ilə bağlı bir araya sığmayan, dövlət orqanlarının nüfuzunu aşağı sala biləcək hərəkətlərin qarşısı qətiyyətlə alınmalıdır. Hər bir dövlət qurumunun rəhbəri öz əməkdaşları üçün vicdanlılıq nümunəsi olmalıdır.

...Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılovun iştirakı ilə daha bir görüş "Altis qroup of company" şirkətinin əməkdaşları ilə olmuşdur. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyev də iştirak etmişdir.

Şirkətdə ümumi istehsal prosesi, xaricdən gətirilmiş avadanlıqlarla, istehsal edilən məhsullarla, işçilər üçün yaradılmış iş şəraiti, həmçinin onların qidalanması və istirahət vaxtı üçün yaradılan şəraitlə tanışlıqdan sonra şirkətin fəaliyyətində gələcəkdə nəzərdə tutulan inkişaf istiqamətləri müzakirə olunmuşdur. Bildirilmişdir ki, işsizliyin aradan qaldırılması, məşğulluğun artırılması, ölkə iqtisadiyyatının inkişafı istiqamətində belə müəssisələrin fəaliyyətinin artırılması vacib şərtlərdəndir.

Görüşdə rayonun sosial-iqtisadi vəziyyəti, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması istiqamətində müzakirələr aparılmışdır. RİH başçısının müavini Vüsar İsmayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə Binəqədi Rayon İcra Hakimiyyətində keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq qeyd etmişdir ki, dövlət başçısı tərəfindən strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

# Sakinlərin qəbulu və digər məsələlər müzakirə edilib

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, RİH başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanov Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Binəqədi rayon sektorunda olub. O, sektorun məsul vəzifəli şəxsləri ilə keçirdiyi görüş zamanı Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirilən fikirlərə toxunaraq, dövlət başçısının rəhbərliyi ilə ölkədə gedən sosial-iqtisadi inkişafın 2016-cı ildə də davam etdiyini bildirib. Görüşdə "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2017-ci il tarixli Fərmanı ilə əlaqədar qarşıda duran vəzifələr barədə fikir mübadiləsi aparılıb.



Elnur İmanov, həmçinin, sektorda vətəndaşların qəbulu prosesində iştirak edib, qeyd olunan fərmanın müddəalarını məcburi köçkünlərə izah edib və vətəndaş qəbulunun daha operativ və səmərəli qurulması üçün müvafiq tövsiyələr verib.

# Ən fəal şagirdlər mükafatlandırılıb

Biləcəri qəsəbəsində «Mən məktəbimizin fəxriyəm» layihəsi çərçivəsində şagirdlərlə görüş keçirilib. Bələdiyyənin "İctimai-humanitar" sektorunun və Biləcəri bələdiyyəsi YAP ərazi ilk partiya təşkilatının təşəbbüsü ilə qəsəbədə fəaliyyət göstərən 300 saylı tam orta məktəbdə keçirilən görüşdə 2016-2017-ci tədris ilinin birinci yarımilinin nəticələrinə görə təhsildə, məktəbdaxili nizam-intizama əməl edilməsində, davamiyyətdə, ictimai fəallıqla bağlı tədbirlərdə daha fəal olan 5, 6, 7, 8 və 9-cu sinif şagirdləri arasında müvafiq araşdırmalar və müqayisələr aparılaraq, eləcə də məktəbin pedaqoji kollektivinin rəyinə əsaslanaraq həmin siniflərdə təhsil alan şagirdlər arasından ən yaxşılar seçiliblər. Təhsildə fərqlənən şagirdlərin hər birinə bələdiyyənin "Təşəkkürnaməsi" və hədiyyələri təqdim edilib.



# Vətəndaş məmnunluğunun təmin edilməsi əsas vəzifələrdəndir

Binəqədi qəsəbəsində yerləşən Mədəniyyət evində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin və Binəqədi qəsəbə bələdiyyəsinin 2016-cı ildəki fəaliyyətinə dair hesabat yığıncağı keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının məsul işçisi Tofiq Həsənov, rayonun kommunal xidmət müəssisələrinin və qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Yığıncağı giriş nitqi ilə açan Vüsar İsmayılov tədbirin mahiyyəti barədə məlumat verərək müzakirə olunacaq məsələlərin gündəliyini elan edib. Sonra Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Elxan Əliyev və Binəqədi qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva 2016-cı il ərzində qəsəbədə görülən işlər barəsində geniş məruzə ilə çıxış ediblər.

Hesabat yığıncağında məruzələr ətrafında qəsəbə sakinləri Mərziyə Hüseynli, Şahrza Ağayev və Çingiz İsmayılov çıxış edərək hər iki hesabata öz münasibətlərini bildirməklə 2017-ci ildə qarşıda duran vəzifələrin icrası ilə əlaqədar öz təklif və tövsiyələrini səsləndiriblər. Müzakirələrdə çıxış edənlər əhalini narahat edən problemlərə toxunaraq, qaldırılan məsələlərin həlli yolları barədə fikir mübadiləsi və müzakirələr aparıblar.

Tədbirdə yekun nitqi ilə çıxış edən Vüsar İsmayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq qeyd edib ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də davam etmiş və dövlət başçısının "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli Fərmanının və digər strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

Bununla yanaşı bildirilib ki, qəsəbədə torpaqlardan istifadənin vəziyyəti qənaətedici deyildir. Belə ki, qəsəbə ərazisində torpaqların zəbt edilməsi, qanunsuz tikinti işlərinin aparılması, tullantılarla çirkləndirilməsi və yararsız hala salınması halları qalmaqda davam edir, qanunsuz tikinti işlərinin qarşısının alınması üçün görülən tədbirlər qənaətbəxş deyildir.

Məruzədə qeyd olunub ki, bələdiyyələrin, o cümlədən Binəqədi qəsəbə bələdiyyəsinin fəaliyyətində, bələdiyyə vergi və rüsumlarının yığılmasında, vətəndaşları narahat edən yerli əhəmiyyətli məsələlərin həllində, sakinlərin müraciətlərinə baxılmasında nöqsanlara yol verilir.

Vətəndaşların müraciətlərinə baxılması, təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülsə də, vətəndaş məmnunluğunun tam təmin etmək mümkün olmamışdır. Yerlərdə vətəndaşların müraciətlərlə yönləndirilməsi, onların qəbulunun təşkili, müraciətlərinə baxılması və qanunamüvafiq cavablandırılması istiqamətində işin yaxşılaşdırılmasına və təkmilləşdirilməsinə ciddi ehtiyac vardır.

Məişət tullantılarının yığışdırılması və daşınması, digər kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində ciddi tədbirlərin görülməsi məsələsinə də toxunulub.

Dövlət və bələdiyyə qulluğunda çalışan, məsul vəzifə tutan əməkdaşlara, onların bilik və bacarığının artırılmasına, etik davranış qaydalarına ciddi əməl olunmasına tələb artırılmalıdır. Bildirilib ki, bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistemli tədbirlər hazırlanaraq həyata keçirilməli, bələdiyyə və nümayəndəliyin fəaliyyətində şəffaflıq artırılmalıdır.

Sonda hər iki müzakirə olunan məsələ barədə müvafiq qərar qəbul edilib. Vurğulanıb ki, 2016-cı ilin yekunları ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti başçısının hesabat məruzəsində bu nöqsan və çatışmazlıqlara xüsusi yer ayrılmalı, ciddi müzakirələr aparılmalı, konkret tədbirlər müəyyənləşdirilməlidir.

# Sosial siyasət dövlətin əsas prioritetlərindəndir



Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılovun iştirakı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Bakı şəhəri Binəqədi rayon şöbəsində iclas keçirilib. Görüşdə Fondun şöbə müdiri Hüseyn Kərimov və əməkdaşlar iştirak ediblər.

İclasda rayonun sosial-iqtisadi fəaliyyəti, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması istiqamətində müzakirələr aparılıb. RİH başçısının müavini bildirib ki, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırmanın, ixtisaslaşmış turizm sənayesinin, logistika və ticarətin, həmçinin uyğun qiymətə mənzil təminatının inkişafı və s. ölkəmizdə iqtisadiyyatın yaxşılaşdırılması sahəsində əhəmiyyətli rol oynayacaqdır.

Vüsar İsmayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq qeyd edib ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də uğurla davam edib və dövlət başçısı tərəfindən strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

Bundan əlavə, RİH başçısının müavini əhalinin sosial tələbatlarının ödənilməsində, o cümlədən əmək pensiyaları və digər sosial ödənişlərin təyinatı ilə əlaqədar müzakirələr aparıb və fondun fəaliyyət istiqamətində görülmüş işlərlə tanış olub, həmçinin fondun işində şəffaflığın artırılması yönündə tövsiyələrini verib. O, sosial siyasətin daim dövlətin əsas prioritetlərindən olduğunu, 2016-cı ildə maaşların 7 faiz, pensiyaların isə 8 faiz artmasının müsbət xarakter daşıdığını və 2017-ci ildə də bu istiqamətdə müsbət dinamikanın davam edəcəyini, ünvanlı sosial yardımla bağlı çox önəmli addımlar atıldığını və bundan sonra da atılacağını vurğulayıb, dövlətin orta təbəqənin maraqlarının qorunması üçün çox ciddi institusional islahatlar apardığını, iş yerlərinin yaradılması ilə bağlı addımların atıldığını vurğulayaraq, bu işlərin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdırıb.

Qeyd olunub ki, vətəndaşların şifahi müraciətləri zamanı dövlət qulluqçularının etik davranış qaydaları çərçivəsində ünsiyyət qurulmalı və edilən müraciətlə bağlı vətəndaşlara düzgün istiqamət verilməlidir. Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistemli və institusional xarakterli tədbirlər hazırlanaraq həyata keçirilməli, dövlət orqanlarının fəaliyyətində şəffaflıq artırılmalıdır. Bildirilib ki, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə kadrların düzgün seçilib yerləşdirilməsi məsələsi mühüm əhəmiyyət kəsb edir. İşə qəbul edilən şəxslər peşəkar, yüksək bilikli, məsuliyyətli, müasir düşüncəli və mədəni davranışa malik olmalıdır. Dövlət qurumlarının rəhbərləri tabeliyində olan hər bir işçini tanımalı, onları narahat edən problemləri bilməli və fəaliyyətlərini diqqət mərkəzində saxlamalıdırlar. Vəzifələrinin icrası ilə bağlı bir araya sığmayan, dövlət orqanlarının nüfuzunu aşağı sala biləcək hərəkətlərin qarşısı qətiyyətlə alınmalıdır. Hər bir dövlət qurumunun rəhbəri isə öz əməkdaşları üçün vicdanlılıq nümunəsi olmalıdır.

Tədbirin sonunda qeyd olunub ki, 2016-cı ilin yekunları ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti başçısının hesabat məruzəsində qeyd olunan nöqsan və çatışmazlıqlarla bağlı xüsusi yer ayrılması, ciddi müzakirələrin aparılması, qısa zamanda konkret tədbirlərin müəyyənləşdirilməsi nəzərdə tutulub.

# Təhsil sahəsindəki neqativ hallar aradan qaldırılmalıdır



Binəqədi rayonunda əhalinin təhsil müəssisələrinə tələbatını müəyyənləşdirmək, təhsilin inkişafı və bu sahədə mövcud problemlərin aradan qaldırılması məqsədilə orta ümumtəhsil məktəblərində görüşlərin keçirilməsinə başlanılıb.

Rayonda fəaliyyət göstərən 126, 244 və 283 nömrəli tam orta məktəblərdə keçirilən görüşlərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, şöbənin baş məsləhətçisi Elnur Məmmədov və orta ümumtəhsil məktəblərinin rəhbər vəzifəli şəxsləri ilə yanaşı, digər məsul işçiləri də iştirak ediblər.

Görüşlərdə çıxış edən məktəb rəhbərliyi təhsilimizə dövlət tərəfindən göstərilən yüksək diqqət və qayğıya görə dövlət başçısına təşəkkür edib, yaradılmış geniş imkanlardan bəhrələnərək ölkəmizin gələcək inkişafı üçün təhsilli, savadlı, milli ruhlu vətəndaş, şəxsiyyət yetişdirdiklərini və qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində əllərindən gələni əsirgəməyəcəklərini bildiriblər.

İcra hakimiyyəti başçısının müavini Aygün Əliyeva təhsilin inkişafı ilə bağlı bir sıra əhəmiyyətli sənədlərin qəbul edildiyini nəzərə çatdıraraq, bütün bunların ölkə Prezidenti cənab İlham Əliyevin təhsil sahəsinə göstərdiyi diqqətin nəticəsi olduğunu vurğulayıb. A.Əliyeva bu sahədə Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilən genişmiqyaslı tədbirlərə də diqqət çəkərək, məhz onun təşəbbüsü ilə «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsinin uğurla icra olunduğunu qeyd edib.

Görüş zamanı RİH başçısının müavini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və Korrupsiya Qarşı Mübarizə üzrə Komissiyanın 26 dekabr 2016-cı il tarixli müşavirələrinə həsr olunmuş 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə keçirilmiş iclasda səsləndirilən fikirlərə toxunaraq qeyd edib ki, bəzi orta ümumtəhsil müəssisələrində korrupsiya hallarının olması ictimaiyyət arasında ciddi narazılıq yaradıb. O, orta ümumtəhsil müəssisələrində korrupsiya və digər mənfi halların qarşısının alınması, ümumi nəzarətin təşkili, məktəblərlə bağlı ictimai rəydə səslənən fikirlərə həssas yanaşılması və digər məsələlərə toxunub. Eyni zamanda məktəblərlə bağlı sakinlərdən daxil olan şifahi və yazılı şikayətlərin araşdırılması və mənfi halların aradan qaldırılması məqsədilə təkliflərin hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim edilməsi tapşırılıb.Qeyd edilib ki, bütün sahələrdə olduğu kimi, orta ümumtəhsil müəssisələrində də korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, bu cür neqativ hallarln aradan qaldırılması məqsədilə sistemli tədbirlər hazırlanaraq həyata keçirilməli, şəffaflıq daha da artırılmalıdır.

# Vətəndaşların qəbulu və müraciətləri ilə bağlı monitorinq



Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanov RİH başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, M.Ə.Rəsulzadə bələdiyyəsində olub. Şöbə müdiri bələdiyyənin məsul vəzifəli şəxsləri ilə keçirdiyi görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında səsləndirilən fikirlərə toxunaraq, dövlət başçısının rəhbərliyi ilə ölkədə gedən sosial-iqtisadi inkişafın davam etdiyini bildirib. E.İmanov, həmçinin, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" və digər strateji əhəmiyyətli sənədlərin imzalanmasının ölkə iqtisadiyyatına mühüm töhfələr verəcəyini vurğulayıb.

Sonra şöbə müdiri bələdiyyədə vətəndaşların qəbulu, onların qaldırdıqları məsələlərin həlli mexanizmi ilə yaxından tanış olub, vətəndaş müraciətlərinə baxılması və digər məsələlər barədə müvafiq tövsiyələrini verib. Daha sonra o, bələdiyyə sədri Hümbət Hüseynovun vətəndaşları qəbul etməsi prosesində iştirak edib.

# Dövlət Sığorta şirkətinin Binəqədi filialında görüş



Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılovun iştirakı ilə Azərbaycan Dövlət Sığorta şirkətinin Binəqədi rayon filialında iclas keçirilib. Tədbirdə Binəqədi RİH başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyev, filialın direktoru Sabir Qarayev və əməkdaşları iştirak ediblər.

İclasda rayonun sosial-iqtisadi fəaliyyəti, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması istiqamətində müzakirələr aparılıb. Görüşdə çıxış edən Vüsar İsmayılov bildirib ki, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" ölkənin neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırmanın inkişafı, ixtisaslaşmış turizm sənayesinin inkişafı, logistika və ticarətin inkişafı, uyğun qiymətə mənzil təminatının inkişafı və s. sahələr üzrə iqtisadiyyatın yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayacaqdır.

V.İsmayılov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq qeyd etmişdir ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də uğurla davam etmiş və ölkə Prezidenti tərəfindən strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

Sonra V.İsmayılov sığorta şirkətinin mövcud vəziyyəti ilə maraqlanıb, rayonda sığorta işinin inkişaf etdirilməsinə dair tövsiyələrini verib, həmçinin rayon ərazisində fəaliyyət göstərən sahibkarlıq obyektlərinin, müəssisələrin, eyni zamanda fərdi yaşayış evlərinin sığortalanmasının vacibliyini vurğulayıb.

Görüşdə, həmçinin, sığorta sektorunun inkişaf istiqamətləri barədə, əhalinin bu sahəyə olan etimadının daha da gücləndirməsi mövzusunda geniş müzakirələr aparılıb, beynəlxalq təcrübəyə əsaslanan tövsiyələr verilib və daim inkişafda olan ölkə iqtisadiyyatında sığorta sektorunun böyük rolu əsaslı şəkildə qeyd olunub.

RİH başçısının müavini vurğulayıb ki, vətəndaşların şifahi müraciətləri zamanı etik davranış qaydaları çərçivəsində ünsiyyət qurulmalı və əhaliyə düzgün istiqamət göstərilməlidir. Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistemli və institusional xarakterli tədbirlər hazırlanaraq həyata keçirilməli, dövlət orqanlarının fəaliyyətində şəffaflıq artırılmalıdır. Qeyd olunub ki, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə kadrların düzgün seçilib yerləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. İşə qəbul edilən şəxslər peşəkar, yüksək bilikli, məsuliyyətli, müasir düşüncəli və mədəni davranışa malik olmalıdır. Dövlət qurumlarının rəhbərləri tabeliyində olan hər bir işçini tanımalı, onları narahat edən problemləri bilməli və fəaliyyətlərini diqqət mərkəzində saxlamalıdırlar. Vəzifələrinin icrası ilə bağlı bir araya sığmayan, dövlət orqanlarının nüfuzunu aşağı sala biləcək hərəkətlərin qarşısı qətiyyətlə alınmalıdır. Hər bir dövlət qurumunun rəhbəri isə öz əməkdaşları üçün vicdanlılıq nümunəsi olmalıdır.

# Gənclər maarifləndirilir



Binəqədi rayon İcra Hakimiyyəti, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Binəqədi rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 2 Fevral- Gənclər Günü münasibətilə "Narkomaniya ilə mübarizədə gənclərin rolu" mövzusunda tədbir keçirilib.

Tədbirdə Binəqədi rayonunda fəaliyyət göstərən peşə məktəblərinin fəal gəncləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan rayon Gənclər və idman idarəsinin rəisi Qüdsi Bayramov qonaqları təqdim edib. Q. Bayramov çıxışında ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin istiqamətləri barədə öz fikirlərini gənclərlə bölüşərək, mövzu ilə bağlı gəncləri maraqlandıran suallar ətrafında fəal olmağa dəvət edib.

Sonra rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai- siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun Beynəlxalq layihələr sektorunun aparıcı məsləhətçisi Səbuhi Bayramov və ekspert qismində iştirak edən DİN Polis Akademiyasının "Daxili İşlər orqanlarında inzibati fəaliyyət" kafedrasının baş müəllimi, Bilik Fondunun Koordinasiya Şurasının üzvü, hüquq üzrə fəlsəfə doktoru, polis polkovnik-leytenantı Rafiq Nəcəfquliyev çıxış edib.



Natiqlər öz çıxışlarında 2 Fevral –Gənclər Günü münasibəti ilə gəncləri təbrik edərək dövlətimizin gənclər üçün yaratdığı əlverişli imkanlardan, onların ictimai-siyasi həyatda fəallığının artırılması istiqamətində görülən işlərdən və gənclər siyasəti sahəsində qəbul olunan dövlət proqramlarının əhəmiyyətindən bəhs edərək, gənclərin zərərli vərdişlərdən, xüsusilə dövrün bəlasına çevrilmiş narkomaniyanın fəsadlarından uzaq olmağa çağıraraq, milli- mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə olunmasının vacibliyindən danışıblar.

## 2015 və 2016-cı illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına daxil olmuş vətəndaş müraciətlərinə baxılması vəziyyətinin müqayisəli təhlili

2016-cı il ərzində Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına vətəndaşlardan, ümumilikdə 3630 müraciət (2015-ci illə müqayisədə 292 vahid və ya 7,5% az) daxil olub.

Hesabat dövründə Binəqədi rayonundan daxil olmuş vətəndaş müraciətlərindən 2781-i ərizə (daxil olmuş müraciətlərin 76,6%-i; o cümlədən, 2015-ci illə müqayisədə 242 vahid və ya 8% az) və 846-sı (daxil olmuş müraciətlərin 23,3%-i; o cümlədən, 2015-ci illə müqayisədə 50 vahid və ya 5,6% az) şikayət, 3-ü (daxil olmuş müraciətlərin 0,1%-i; o cümlədən, 2015-ci illə eyni sayda) təklif olmuşdur.

### 2015 və 2016-cı illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına vətəndaşlar tərəfindən daxil olmuş yazılı müraciətlərin mövzularının təhlili

| Müraciətlərin mövzuları | 2016 | 2015 | Fərq | Xüsusi çəkisi %-lə |
|---|---|---|---|---|
| Cəmi | 3630 | 3922 | -292 | -7,5 |
| o cümlədən: | | | | |
| Şəhərsalma və tikinti məsələləri | 1084 | 1461 | -377 | -25,8 |
| Mənzil məsələləri | 569 | 593 | -24 | -4,0 |
| Sosial müdafiə məsələləri | 384 | 318 | 66 | 20,8 |
| Enerji daşıyıcıları və su təchizatı məsələləri | 131 | 158 | -27 | -17,1 |
| Torpaq məsələləri | 189 | 81 | 108 | 133,3 |
| Təbii fəlakət hadisələri və fövqəladə hallarla bağlı məsələlər | 106 | 148 | -42 | -28,4 |
| Qaçqınlar və məcburi köçkünlərlə bağlı məsələlər | 79 | 130 | -51 | -39,2 |
| Sənaye, iqtisadiyyat və sahibkarlığın inkişafı ilə bağlı məsələlər | 59 | 20 | 39 | 195,0 |
| Səhiyyə məsələləri | 26 | 55 | -29 | -52,7 |
| Nəqliyyat məsələləri | 25 | 31 | -6 | -19,4 |
| Məişət məsələləri | 89 | 185 | -96 | -51,9 |
| Qəbul məsələləri | 38 | 80 | -42 | -52,5 |
| Şəhər, rayon icra hakimiyyətlərinin və bələdiyyələrin fəaliyyəti ilə əlaqədar | 669 | 295 | 374 | 126,8 |
| Vəzifəli şəxslərin hərəkət və hərəkətsizliyindən şikayətlə bağlı | 51 | 115 | -64 | -55,7 |
| Digər məsələr | 131 | 252 | -121 | -48,0 |

### 2015 və 2016-cı illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına vətəndaşlar tərəfindən daxil olmuş yazılı müraciətlərin qəsəbələr üzrə sayı




### 2015 və 2016-cı illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına vətəndaşlar tərəfindən daxil olmuş yazılı şikayətlərin qəsəbələr üzrə sayı




### 2015 və 2016-cı illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına vətəndaşlar tərəfindən daxil olmuş yazılı şikayətlərin qəsəbələr üzrə sayı

| | |
|---|---|
| Qəbul edilən vətəndaşların sayı, cəmi | 5214 |
| O cümlədən Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən qəbul edilən vətəndaşların sayı | 284 |
| Qəbullarda qaldırılan məsələlər, o cümlədən: | |
| Tikinti məsələləri | 1989 |
| Mənzil məsələləri | 322 |
| Maddi yardım məsələləri | 281 |
| Obyektin sənədləşdirilməsi məsələləri | 198 |
| İşlə təmin olunma məsələləri | 198 |
| Uşaq tələbi, uşaqla ünsiyyət hüququnun bərpa edilməsi, valideynlik hüququndan məhrumetmə məsələləri | 178 |
| Təmir məsələləri | 138 |
| Torpaq sahəsi ilə təmin olunma məsələləri | 137 |
| Qeyri-qanuni tikinti və söküntü məsələləri | 137 |
| Övladlığa götürmə məsələləri | 129 |
| Sənədləşdirmə məsələləri | 127 |
| Ekologiya, su-kanalizasiya, qaz, enerji və istilik məsələləri | 112 |
| Hüquqi məsələlər | 97 |
| Qarajla bağlı məsələlər | 80 |
| Ad dəyişmə və nikah yaşının azaldılması məsələləri | 76 |
| Ərazinin abadlaşdırılması məsələləri | 51 |
| Sosial yardım məsələləri | 48 |
| Kompensasiya ödənilməsi məsələləri | 47 |
| Yol-nəqliyyat problemləri, qəyyumluq və himayə, azyaşlının internat məktəbinə yerləşdirilməsi, mülkün satılmasına icazə məsələləri | 46 |
| Qaçqın və məcburi köçkünlərin problemləri ilə bağlı məsələlər | 32 |
| Qeydiyyata düşməklə bağlı məsələlər | 28 |
| Digər məsələlərlə bağlı | 763 |

# Vətəndaş məmnunluğunun təmin olunmasında böyük pay sahibi

## "Sakinlərin Müraciət Xidməti-1646"nın yaranmasından dörd il ötür

Əminliklə demək olar ki, 2013-cü il fevralın 5-dən etibarən Binəqədi Rayon İcra Hakimiyyətində fəaliyyətə başlayan bu qurum sakinlərin böyük inam və etimadını qazanıb. SMX vətəndaşlarla operativ ünsiyyətin yaradılması, icra hakimiyyətinə gəlmədən və yazılı müraciət etmədən onları narahat edən problemlərin rəhbərliyə çatdırılması baxımından çox faydalı, mütərəqqi və əvəzsiz xidmət növü kimi böyük uğurlara imza atıb.



Xidmət bütün müasir avadanlıqlarla və sürətli kommunikasiya sistemi ilə təchiz edilməklə 24 saat fasiləsiz fəaliyyət göstərir. Bütün bu imkanlar Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən vətəndaşlara göstərilən xidmətlərin hər bir sakin üçün əlçatan olmasını təmin etmək məqsədini daşıyır. Yerli icra hakimiyyətləri arasında ilk dəfə Binəqədi Rayon İcra Hakimiyyətində təşkil edilmiş bu xidmətin sayəsində vətəndaşlar cəmi bir zənglə üzləşdikləri problemləri operativ şəkildə həll edə bilirlər.

Aparılan təhlillər göstərir ki, SMX-1646 sayəsində yuxarı orqanlara edilən şikayət və müraciətlərin sayı kifayət qədər azalıb. Qurum fəaliyyətə başladığı gündən rayon ərazisində yaşayan əhaliyə yüksək keyfiyyətli xidmətlər göstərməyi qarşısına məqsəd qoyub. Hətta digər rayonlardan da sakinlərin bu xidmətə müraciət etməsi hallarına rast gəlinir. Bu da qurumun əhali arasında olan yüksək nüfuzundan xəbər verir.

SMX-nın 4 illik fəaliyyəti barədə qəzetimizə məlumat verən qurumun rəisi Anar Səfərov bildirib ki, artıq Binəqədi sakinləri onları narahat edən problemlərlə bağlı hansı ünvana üz tutacaqlarını, hansı nömrəyə zəng edəcəklərini yaxşı bilirlər. Qurumun fəaliyyəti insanlarla ünsiyyətin yaradılması, onların suallarının operativ cavablandırılması və şikayət xarakterli müraciətlərinin qeydiyyata götürülməsi baxımından uğurlu nəticələr verir: «Əminliklə deyə bilərəm ki, 4 il fəaliyyət göstərən SMX oturuşmuş xidmət növünə çevrilib. Bu müddət ərzində on minlərlə rayon sakini xidmətimizdən yararlanıb. Elə bu səbəbdəndir ki, təkcə 2016-cı ildə xidmətin ünvanına 500-ə yaxın təşəkkür zəngi daxil olub. Ümumilikdə, xidmətin yaradılmasında məqsəd dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəvidə inkişafına nail olmaq, eyni zamanda dövlət orqanları ilə cəmiyyət arasında əlaqələri gücləndirməkdir".

A.Səfərov hazırda bəzi rayonlarda da buna oxşar xidmət növlərinin fəaliyyətə başladığını diqqətə çatdırıb. Ximət rəisinin sözlərinə görə, vətəndaşların suallarının cavablandırılması zamanı sərbəst şərhlərə yol verilmir: "Hər bir sualın izahı rəsmi sənədlərə istinadla cavablandırılır. Belə sənədlər olmadıqda isə sual vərəqəsi tərtib edilir və bu zaman müraciət edənin kimliyi, ünvanı və telefon nömrəsi qeydə alınır. Şikayətdə olan qaranlıq məqamlar əlavə suallar verilməklə aydınlaşdırılır. Şikayətçinin etdiyi müraciətin məzmununa əlavə və dəyişikliklər olarsa, həmin düzəlişlər qarşı tərəfə yenidən oxunur. Şikayət vərəqəsi qəbul olunduqdan sonra operator müraciətin kateqoriyası üzrə operativ şəkildə aidiyyəti yerli quruma, ünvanın aid olduğu qəsəbə nümayəndəliyinə (bələdiyyəyə), icra hakimiyyətinin müvafiq şöbəsinə məlumat verir. Şikayət vərəqəsi vətəndaşın müraciətində qeyd etdiyi məsələ tam həll olunanadək nəzarətdə saxlanılır. Operatorla vətəndaş arasında aparılan danışıqların lentə yazılması telefon danışıqlarına nəzarət etmək məqsədi güdür və anonim zənglər avtomatik təyin olunur. SMX ilə əlaqə saxlamaq üçün istər stasionar telofonlardan (ev telefonu), istərsə də mobil telefonlardan 1646 nömrəsinə zəng etmək lazımdır".

Xidmət rəisi ötən müddət ərzində qurumun fəaliyyətində müəyyən yeniliklərin də olduğunu vurğulayıb. Onun sözlərinə görə, sakinlərin şikayətlərinin daha operativ həlli üçün aidiyyəti qurumların rəhbərlərinin mobil telefonlarına SMS-lər göndərilir ki, bu da idarə və müəssisə rəhbərlərinin məsuliyyətini bir qədər də artırmış olur. Müsahibimiz, eyni zamanda, xidmətə daxil olan müraciətlərin günü-gündən artdığını da diqqətə çatdırıb: "Bu isə ondan xəbər verir ki, vətəndaşlar bu xidmət növünə daha çox güvənirlər. Aparılan təhlillər göstərir ki, bəzi sahələr üzrə şikayətlər mövsümdən asılı olaraq arta və ya azala bilər. Məsələn, yazyay aylarında əhalinin su, kanalizasiya ilə bağlı şikayətləri çoxluq təşkil edirsə, qış mövsümündə istilik və qaz təchizatı ilə bağlı problemlər onları daha çox narahat edir. Bunu son bir ilin yekunu ilə bağlı aparılmış təhlillərdə də görmək olar".

Bildirilib ki, fəaliyyətə başladığı gündən indiyədək quruma 128 mindən yuxarı şikayət və müraciət daxil olub: "Araşdırmalar zamanı məlum edilib ki, bu müddət ərzində bir günə daxil olmuş orta zəngin sayı təxminən 124 olub. Təbii ki, bu da insanların Binəqədi Rayon İcra Hakimiyyətinə olan inamından irəli gəlir". Əlavə edək ki, təkcə 2016-cı ildə xidmətə 41795 zəng daxil olub ki, bu zənglərin 3087-si su-kanalizasiya, 3339-u qaz, 571-i isə istiliklə bağlı olub. Təkcə 2016-cı ilin dekabr ayı üzrə statistik rəqəmləri əks etdirən göstəricilər təhlil olunarkən müəyyən edilib ki, ay ərzində quruma 5035 zəng daxil olub, şikayət xarakterli müraciətlərin 934-nün icrası təmin edilib, o cümlədən 675-i tam , 138-i qismən, 121-i isə müvafiq izahat verilərək həll olunub. Şikayətlərin sahələr üzrə bölgüsünə gəldikdə isə onların 488-i qaz təchizatı, 191-i su-kanalizasiya, 133-ü istilik, 50-si lift problemləri, 34-ü sakinləri narahat edən digər məsələlər, 28-i elektrik təchizatı, 5-i yaşıllaşdırma idarəsi , 3-ü zibil və tullantılar, 2-si küçələrin işıqlandırılması ilə bağlı olub. Xidmətə daxil olan təşəkkürlərin sayı isə 47 təşkil edib".

Göründüyü kimi, mövsümə uyğun olaraq kommunal xidmət sahələrində - su, qaz, istilik təchizatı ilə əlaqədar yaranmış problemlərlə bağlı müraciətlər daha çox üstünlük təşkil edib. Hansı ki, qeyd olunan hər bir xidmət təşkilatının öz əlaqə telefonları və qaynar xətti mövcuddur. Lakin vətəndaşların Binəqədi Rayon İcra Hakimiyyətinin Sakinlərin Müraciət Xidmətinə daha çox üz tutmaları ondan xəbər verir ki, insanların bu quruma etimadı daha böyükdür.

# YAP sıralarına daxil olmaq istəyənlərin sayı günbəgün artır



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında partiyaya üzv olmaq üçün müraciət etmiş şəxslərlə görüş keçirilib. Tədbirdə rayon təşkilatının sədri Ramiz Göyüşov, təşkilatın əməkdaşları, könüllü gəncləri, müvafiq ərazi ilk partiya təşkilatlarının sədrləri və partiyaya üzv olmaq üçün müraciət etmiş şəxslər iştirak ediblər.

Görüşü giriş nitqi ilə açan Ramiz Göyüşov qonaqları salamlayaraq təşkilatın binasının açılışının 2013-cü ilin iyul ayının 3-də ölkə Prezidenti, YAP-ın sədri cənab İlham Əliyevin iştirakı ilə baş tutduğunu diqqətə çatdırıb. R.Göyüşov inzibati binanın dövlət başçısı tərəfindən bütün partiya üzvlərinə hədiyyə edildiyini və onların bütün təşəbbüslərinin, ideyalarının burada reallaşması üçün dəstək göstərildiyini deyib. Ramiz Göyüşov həmçinin YAP-ın yaranma tarixindən, ulu öndər Heydər Əliyevin böyük çətinliklərə baxmayaraq, ölkəmizi düşdüyü ağır bəlalardan qurtardığını bildirib. O, YAP-ın yaranması və ümummilli lider Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə qayıdışı ilə bütün çətinliklərin arxada qaldığını və respublikamızın böyük inkişaf, tərəqqi yoluna qədəm qoyduğunu vurğulayıb. Bu gün müstəqil Azərbaycanın Heydər Əliyevin uzaqgörən və müdrik siyasi ideyalarının davam etdirilməsi ilə dinamik inkişaf etdiyini və böyük nüfuz qazandığını qeyd təşkilat sədri dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu islahatlardan söhbət açıb.

Daha sonra YAP-a üzv olmaq üçün müraciət etmiş şəxslərlə geniş söhbət açan R.Göyüşov onlara partiyanın tarixinə, siyasi fəaliyyətinə, Proqram və Nizamnaməsinə, strukturuna dair bir sıra suallar ünvanlayıb. Görüşdə çıxış edən YAP üzvlüyünə namizədlər bu istəklərinin şəxsi təşəbbüsləri olduğunu və könüllü şəkildə YAP sıralarında təmsil olunmaq istədiklərini bildiriblər. Onlar ölkəmizin ictimai-siyasi sabitliyinin, dünyada böyük hörmət və nüfuz qazanmasının məhz dövlət başçısı, YAP-ın sədri cənab İlham Əliyevin uğurlu siyasətinin bariz göstəricisi olduğunu vurğulayıblar. Dövlət başçısı cənab İlham Əliyevi daim dəstəkləyəcəklərini və bu məqsədlə YAP sıralarına üzv olmaq istədiklərini nəzərə çatdırıblar.

# Hesabat-seçki yığıncaqları davam edir

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının IX hesabat-seçki konfransına hazırlıq çərçivəsində ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqları davam edir. Bu məqsədlə yanvarın 19-da YAP Binəqədi rayon təşkilatı Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, Azadlıq prospekti 3a ünvanlı (143 saylı tam orta məktəb) ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirilib.

İlk öncə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra iclası giriş nitqi ilə açan ərazi ilk partiya təşkilatının sədri Elmar Həşimov gündəlikdə duran məsələlər barədə toplantı iştirakçılarına ətraflı məlumat verib və hesabat məruzəsi ilə çıxış edib. Hesabat dövründə görülən işlərdən danışan sədr ərazi ilk partiya təşkilatının 53-ü qadın olmaqla 58 nəfər üzvü olduğunu və onların sayının günbəgün artdığını bildirib. Qeyd olunub ki, Azərbaycanın parlaq gələcəyi naminə atılan hər bir addımda öz Prezidentini dəstəkləyən YAP üzvləri partiya tərəfindən keçirilən bütün tədbirlərdə fəal iştirak edirlər.

İclasda çıxış edən ərazi ilk partiya təşkilatının üzvləri - Şəhla Təhməzova, Şəfəq Xudiyeva, Xanım Abdullayeva hesabatın qənaətbəxş olduğunu vurğulayıblar.

Daha sonra iclasda gündəliyə çıxarılan məsələlər ətrafında geniş müzakirələr başlanıb və bütün məsələlər barədə qərar qəbul edilib. 7 nəfərdən ibarət İdarə Heyəti, Elmar Həşimov yeni sədr, Şəhla Təhməzova müavin, rayon təşkilatının IX konfransına 1 nəfər nümayəndə seçilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov məktəb rəhbərliyinə və iclas iştirakçılarına partiyanın fəaliyyətində yaxından iştirak etdikləri üçün təşəkkürünü bildirib.

Yanvarın 2-də isə 7-ci mikrorayon, Abay Kunanbayev 294 ünvanlı (151 saylı körpələr evi-uşaq bağçası) ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı olub.

Yığıncaqda ərazi ilk partiya təşkilatının sədri Venera Xəlilova gündəlikdə duran məsələlər barədə məlumat verərək ərazi ilk partiya təşkilatında hesabat dövrü ərzində görülən işlər barəsində danşıb. Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətindən və YAP-ın yaranma tarixindən bəhs edən sədr daha sonra təşkilatının fəaliyyətini diqqətə çatdırıb. Keçən dövr ərzində əldə olan nailiyyətlər və yeni ildə görüləcək işlər haqda məlumat verən ƏİPT–nın sədri partiya üzvlərinin sayının günbəgün artdığını və bu gün müəssisənin işçilərinin çox hissəsinin partiya sıralarında uğurlar fəaliyyət göstərdiyini bildirib. Daha sonra sədr qeyd etdi ki, Azərbaycanın parlaq gələcəyi naminə atılan hər bir addımda öz prezidentini dəstəkləyən YAP üzvləri partiya tərəfindən keçirilən bütün tədbirlərdə fəal iştirak edirlər.

İclasda çıxış edən ərazi ilk partiya təşkilatının üzvləri – Nərgiz Abbasova və Zaura Abbasova sədrin hesabat çıxışına münasibət bildirərək, ötən dövr ərzində görülən işlərin hesabatını qənaətbəxş hesab ediblər. İclasda gündəliyə çıxarılan məsələlər ətrafında geniş müzakirələr aparılıb. Ərazi ilk partiya təşkilatının 7 nəfərdən ibarət İdarə Heyəti, Venera Xəlilova yeni sədr, Nərgiz Abbasova sədr müavini, rayon təşkilatının IX konfransına 1 nəfər nümayəndə seçilib.

YAP Binəqədi rayon təşkilatının baş təlimatçısı Rahil Şükürov çıxış edərək qeyd edib ki, Azərbaycanda bütün sahələrdə, xüsusilə təhsil sahəsində həyata keçirilən islahatlar, Prezident cənab İlham Əliyevin apardığı uğurlu siyasətin və ulu öndər Heydər Əliyev siyasi kursunun ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsinin nəticəsidir. O, həmçinin ərazi ilk partiya təşkilatının hesabatını qənaətbəxş hesab edərək yeni seçilmiş tərkibi təbrik etdi və işlərində uğurlar arzulayıb.

YAP Binəqədi rayon təşkilatı Binəqədi rayonu, Sulutəpə qəsəbəsi, R.Allahverdiyev ünvanlı (217 saylı tam orta məktəb) ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı Yanvarın 21-də baş tutub.

İclası giriş nitqi ilə açan ərazi ilk partiya təşkilatının sədri Bənövşə Cəfərova gündəlikdə duran məsələlər barədə məlumat verərək bildirib ki, iclasda ərazi ilk partiya təşkilatının hesabat dövrü ərzində gördüyü işlərin hesabatı təqdim olunacaq, təşkilatının İdarə Heyətinin tərkibi, yeni sədr və müavinləri, rayon təşkilatının IX hesabat-seçki konfransına nümayəndələr seçiləcək. Bənövşə Cəfərova daha sonra iclasda ərazi ilk partiya təşkilatında hesabat dövrü ərzində görülən işlərin hesabatını diqqətə çatdırıb. Bildirib ki, təşkilatdakı YAP üzvləri istər ölkə səviyyəsində keçirilən tədbirlərdə, istərsə də rayon tədbirlərində fəal iştirak edirlər. Ərazi ilk partiya təşkilatı YAP-ın Binəqədi rayon təşkilatının təşkilatçılığı ilə keçirilən "Ölkəmizi tanıyaq", "Azərbaycan səninlədir, sənsiz deyil", "Gəlin gəncliyimizi qoruyaq, narkomaniyaya yox deyək" layihəsinə qoşulub. Əlamətdar günlərlə bağlı - ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü il dönümünün təntənəli şəkildə qeyd edilməsi və dahi şəxsiyyətin əziz xatirəsinin yad edilməsi məqsədi ilə dərslər keçirilib, viktorinalar təşkil olunub. İlin sonunda "Tolerantlıq, Multikulturallıq, Həmrəylik" adlı tədbir və mövzu ilə bağlı rəsm sərgisi keçirilərək qaliblər mükafatlandırılıb. O, həmçinin YAP üzvlərinin sıralarının günbəgün artdığını qeyd edərək bildirdi ki, bu gün ərazi ilk partiya təşkilatı üzrə YAP-ın 54 nəfər üzvü var. Hamısı ali təhsilli pedaqoqlardan ibarət olan partiya üzvləri partiyanın fəaliyyətində daim yaxından iştirak edir və öz dəstəyini göstərir.

İclasda gündəliyə çıxarılan məsələlər ətrafında geniş müzakirələr aparılıb.





İclasda çıxış ərazi ilk partiya təşkilatının üzvləri – Səadət Ədilova, Zərifə Yusifova hesabatı qənaətbəxş hesab edərək öz təkliflərini irəli sürüblər. İclasda müzakirəyə çıxarılan bütün məsələlər barədə qərar qəbul edilib. Ərazi ilk partiya təşkilatının 9 nəfərdən ibarət İdarə Heyəti təsdiqləndi. Bənövşə Cəfərova sədr və Zərifə Yusifova və Səlim Bədəlov sədr müavinləri seçiliblər. Daha sonra məktəbin müəllimlərindən Ədibə Tağıyeva, Zümrüd Məmmədova, Nübar Ələsgərova, Ülviyyə Aslanova, Şərafət Məmmədova müraciət edərək Yeni Azərbaycan Partiyasına üzv olmaq istədiklərini bildiriblər.

Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının baş təlimatçısı Rahil Şükürov çıxış edərək Yeni Azərbaycan Partiyasının yaranma şəraitindən bəhs edib.

Sonda ərazi ilk partiya təşkilatının yeni seçilmiş İdarə Heyətini, sədr və müavinləri təbrik edərək, məktəbin pedaqoji heyətinə uğurlar arzulayıb.

Yanvarın 23-də Binəqədi rayonu, Mir Cəlal 103a ünvanlı (157 saylı tam orta məktəb) ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı olub.

İclası giriş nitqi ilə açan ərazi ilk partiya təşkilatının sədri Gülayə Səttarova gündəlikdə duran məsələlər barədə məlumat verib.

G. Səttarova daha sonra ərazi ilk partiya təşkilatı tərəfindən hesabat dövrü ərzində görülən işlərin hesabatını diqqətə çatdırıb.. Sədr qeyd etdi ki, hal-hazırda təşkilatda 50 nəfər YAP üzvü var və sıralarımız getdikcə daha da genişlənir. İclasda çıxış edən ərazi ilk partiya təşkilatının üzvləri – Adil Həmidov, Akif Abdullayev hesabatı qənaətbəxş hesab edərək öz təkliflərini irəli sürüblər.

İclasda müzakirəyə çıxarılan bütün məsələlər barədə qərar qəbul edilib. Qərara əsasən ərazi ilk partiya təşkilatının 7 nəfərdən ibarət İdarə Heyəti, Gülayə Səttarova sədr, Adil Həmidov sədr müavini və partiyanın rayon təşkilatının IX konfransına 1 nəfər nümayəndə seçilib.

İclasda çıxış edən Ramiz Göyüşov ərazi ilk partiya təşkilatının yeni seçilmiş İdarə Heyətini, sədr və müavini təbrik edərək, onlara və məktəbin pedaqoji heyətinə uğurlar arzulayıb.

Həmin gün Biləcəri qəsəbəsi, A. Zeynallı 37 «A» ünvanlı (Biləcəri Bələdiyyəsi) ərazi ilk partiya Təşkilatının hesabat seçki yığıncağı keçirilib.

İclası giriş nitqi ilə açan ərazi ilk partiya təşkilatının sədr əvəzi Hikmət Quliyev gündəlikdə olan məsələlər barədə məlumat verib. Sədr əvəzi daha sonra ərazi ilk partiya təşkilatı tərəfindən fəaliyyət dövrü ərzində görülən işlərin hesabatını təqdim edib. O, üzvlərin YAP Binəqədi rayon təşkilatının tədbirlərində mütəmadi və aktiv iştirak etdiklərini və özlərinin də bu istiqamətdə olan layihələrdə təşəbbüskar olduqlarını xüsusilə qeyd edib. Biləcəri Bələdiyyəsinin üzvlərinin və aparat işçilərinin aktiv fəaliyyətindən bəhs olunub. Daha sonra Hikmət Quliyev Binəqədi rayon İcra Hakimiyyəti və YAP Binəqədi rayon təşkilatı ilə əməkdaşlıq edərək uğurlu layihələr həyata keçirdiklərini də qeyd edib.

İclasda çıxış edən partiya üzvləri – Nazir İsgəndərov, Vüqar Məhərrəmov, Qorxmaz Cəfərov, Səma Əliyeva hesabatı qənaətbəxş hesab edərək öz təkliflərini irəli sürdülər.

Daha sonra gündəlikdə olan məsələrə ətrafında geniş müzakirələr aparılıb və qərar qəbul edilib. Qərara əsasən ərazi ilk partiya təşkilatının 5 nəfərən ibarət İdarə Heyəti, Hikmət Quliyev sədr, Nazir İsgəndərov sədr müavini və rayon təşkilatının IX konfransına 1 nəfər nümayəndə seçilib.

Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov iclasda çıxış edərək YAP-ın ideoloji prinsiplərinin əsas istiqamətinin vətəndaşlara xidmət olduğunu nəzərə alaraq, milli-mənəvi dəyərlərimizi, Azərbaycançılıq məfkurəsini qorumağın bizim başlıca vəzifəmiz olduğunu iştirakçıların nəzərinə çatdırıb.

Sonda Ramiz Göyüşov ərazi ilk partiya təşkilatının yeni seçilmiş İdarə Heyətini, sədr və müavini təbrik edərək, bələdiyyə kollektivinə uğurlar arzuladı. Yanvarın 23-də daha bir ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncağı baş tutub. Binəqədi rayonu, Ziya Bünyadov 3 ünvanlı (İdrak Liseyi ) ərazi ilk partiya təşkilatında iclası giriş nitqi ilə İdrak Liseyinin təsisçisi, pedaqoji elmlər doktoru, professor Mönsüm Alışov açıb. O bildirib ki, gündəlikdə ərazi ilk partiya təşkilatının hesabatının və təşkilati məsələlərin müzakirəsi nəzərdə tutulub.

Sonra ərazi ilk partiya təşkilatının sədri Rübabə Hacıyeva hesabat məruzəsi ilə çıxış edərək təşkilatın 2016-cı ildəki fəaliyyətindən, görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Bildirib ki, təşkilatdakı YAP üzvləri istər ölkə səviyyəsində keçirilən tədbirlərdə, istərsə də rayon tədbirlərində fəal iştirak edirlər. Ərazi ilk partiya təşkilatı YAP-ın Binəqədi rayon təşkilatının təşkilatçılığı ilə keçirilən bir sıra layihələrə qoşulub.

Daha sonra iclasda gündəliyə çıxarılan məsələlər ətrafında geniş müzakirələr başlanıb və müzakirəyə çıxarılan bütün məsələlər barədə qərarlar qəbul edilib. Yığıncaqda çıxış edən partiya üzvləri – Qafilə Əliyeva, Sevinc İmanova, Ülkər Əhmədova hesabat məruzəsinin qənaətbəxş olduğunu bildiriblər.

İclasın qərarına əsasən Rübabə Hacıyeva ərazi ilk partiya təşkilatının sədri, Aynur Salayeva sədr müavini və rayon təşkilatının IX konfransına 1 nəfər nümayəndə seçilib.

Sonda YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov dünyada baş verən gərgin ictimai-siyasi proseslərin fonunda prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həyata keçirilən uğurlu siyasətdən bəhs edib. Vurğulayıb ki, bu gün ölkəmiz bütün sahələr üzrə böyük uğurlar qazanır və dövlətimizin nüfuzu durmadan artır. Təbii ki, bütün bunlar ulu öndər Heydər Əliyev siyasi kursunun ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsinin nəticəsidir. Ramiz Göyüşov çıxışının davamında ərazi ilk partiya təşkilatının fəaliyyəti barədə danışaraq hesabatı qənaətbəxş hesab edib. Yeni seçilmiş sədr və sədr müavinini təbrik edərək onlara işlərində uğurlar arzulayıb.

Binəqədi rayonu, Ziya Bünyadov prospekti 15 ünvanlı (Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi "Cihaz" İB "Sənayecihaz" EİM) ərazi ilk partiya təşkilatının yanvarın 24-də keçirilən hesabat-seçki yığıncağında YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi "Cihaz" İB-nin baş direktorunun müavini Xəqani İsayev, rayon partiya təşkilatının əməkdaşları iştirak ediblər.

Ərazi ilk partiya təşkilatının sədri Məhəbbət Hümbətov iclası giriş sözü ilə açaraq qonaqları salamladı və iclasın gündəliyini diqqətə çatdırıb. Hesabat məruzəsi ilə çıxış edən Məhəbbət Hümbətov təşkilat tərəfindən həyata keçirilən tədbirlər və layihələr barədə danışıb.

Yığıncaqda çıxış edən Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi "Cihaz" İB-nin baş direktorunun müavini Xəqani İsayev, ərazi ilk partiya təşkilatının Qadınlar Şurasının sədr müavini Xuraman Fərəcova, Gənclər Birliyinin sədr müavini Xəyal Aslanov, Gənclər Birliyinin üzvü Vüqar Zərgərov hesabat məruzəsinin qənaətbəxş olduğunu bildiriblər. Sonda R. Göyüşov çıxış edərək yeni seçilmiş sədr və sədr müavinlərinə uğurlar arzulayıb.

Yanvarın 25-də isə Binəqədi qəsəbəsi, Ramazanov 84 ünvanlı (182 saylı tam orta məktəb) ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı olub.

İclasda ərazi ilk partiya təşkilatının sədri Zinyət Tağıyeva hesabat məruzəsi ilə çıxış edib və ötən müddət ərzində görülən işlərdən danışıb.

İclasda çıxış edən ərazi ilk partiya təşkilatının üzvləri – Arzu Əliyeva, Yəhya Tağıyev, Qaratel Əliyeva hesabatı qənaətbəxş hesab edərək öz təkliflərini irəli sürüblər.

Daha sonra iclasda gündəliyə çıxarılan məsələlər ətrafında geniş müzakirələr başlanıb. İclasda müzakirəyə çıxarılan bütün məsələlər barədə qərar qəbul edilib. Qərara əsasən ərazi ilk partiya təşkilatının 11 nəfərdən ibarət İdarə Heyəti, Zinyət Tağıyeva sədr, Günay Məlikova sədr müavini və rayon təşkilatının IX konfransına 2 nəfər nümayəndə seçilib.

Yekunda Ramiz Göyüşov ərazi ilk partiya təşkilatının hesabatını qənaətbəxş hesab edərək yeni seçilmiş tərkibi təbrik edib, onlara və məktəbin pedaqoji heyətinə uğurlar arzulayıb.

Qeyd edək ki, hesabat-seçki yığıncaqları aprel ayınadək davam edəcək və ümumilikdə 206 ərazi ilk partiya təşkilatını əhatə edəcəkdir.

# "Binəqədi" qəzeti dörd yaşını qeyd etdi

Yanvarın 27-də Binəqədi Rayon İcra Hakimiyyətinin təsisçiliyi ilə nəşr olunan "Binəqədi" qəzetinin 4 yaşı tamam oldu. 12 illik fasilədən sonra 2013-cü ilin yanvarında fəaliyyətini bərpa edən qəzet hazırda 2000 tirajla çap olunur.

"Binəqədi" qəzeti fəaliyyət göstərdiyi müddətdə rayonun ictimai-siyasi və sosial-iqtisadi həyatında özünəməxsus rol oynayıb. Binəqədi rayonunda, bütövlükdə isə ölkədə baş verən ictimai-siyasi hadisələri, həyata keçirilən sosial-iqtisadi və abadlıq-quruculuq işlərini operativ şəkildə öz səhifələrində işıqlandırmağa çalışan "Binəqədi" qəzeti rayonda baş verən bütün dəyişiklikləri oxuculara çatdırmaqda güzgü rolunu oynamaqla yanaşı, ümumilikdə dövlət və cəmiyyət arasında qarşılıqlı əlaqələrin qurulmasında, vətəndaş münasibətlərinin formalaşmasında körpü missiyasını üzərinə götürüb.

Dünyanın inkişaf etmiş ölkələrində mətbuat müstəqil dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həyata keçirilməsində, cəmiyyətdə sosial ədalət prinsiplərinin və şəffaflığın təmin edilməsində, insan hüquqlarının müdafiəsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə milli mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamaqdadır. Bu gün beynəlxalq aləmdə özünəməxsus yeri olan müasir müstəqil Azərbaycan da bütün bu proseslərdən kənarda qalmır. Bu yolda mətbuatın, kütləvi informasiya vasitələrinin rolunu xüsusilə qeyd etmək lazımdır. Ölkəmizdə mövcud olan söz azadlığı, plüralist mühit hər bir vicdanlı qələm adamına öz fikrini, dünyaya baxışını açıq şəkildə ifadə etməyə imkan verir. Bu baxımdan, rayon icra hakimiyyəti tərəfindən yaradılmış hərtərəfli şəraitdən bəhrələnən "Binəqədi" qəzeti də öz üzərinə düşən missiyanı layiqincə yerinə yetirmək əzmindədir.

Artıq 161-ci nömrəsi işıq üzü görmüş qəzetin "Tanınmışlar", "Abad məhəllə" "Həftənin panoramı" "Səyyar görüşlər", "Abadlıq", "Binəqədi evimizdir", "Sadə peşə adamları", "Gənc istedadlar", "Hüquq", "Sorğu" və s. bu kimi rubrikaları oxucular arasında müəyyən populyarlıq qazanıb. Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə həyata keçirilən "Təmiz Binəqədi" sosial layihəsi çərçivəsində görülən işlər müntəzəm olaraq qəzetdə öz əksini tapıb.



...Bu günlərdə qəzetimizin 4 yaşının tamam olması münasibətilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, şöbənin əməkdaşı Seymur Hacıyev redaksiyamıza təşrif buyurublar. Rayon icra hakimiyyətinin rəhbərliyi adından kollektivi təbrik edən şöbə müdiri bildirib ki, qəzet öz fəaliyyəti dövründə üzərinə düşən missiyanı layiqinqə yerinə yetirməyə müvəffəq olub: "Son illər Binəqədi rayonunda aparılan abadlıq-quruculuq işləri ilə tanış olmaq üşün qəzetin ötənilki səhifələrini vərəqləmək kifayətdir. Həqiqətən də görülən işlər, həyata keçirilən tədbir və layihələr geniş şəkildə oxucuya çatdırılıb. Bu, eyni zamanda, bir arxiv sənədi, tarixdir. Müəyyən dövrdən sonra istənilən şəxs qəzetin arxivinə müraciət etməklə rayon barəsində ətraflı məlumat əldə edə bilər. Bunu dəyərləndirmək və qiymətləndirmək lazımdır". "Binəqədi" qəzetinin baş redaktoru Rüfət Mərdanov göstərilən diqqətə görə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərova və Aparatın məsul işçilərinə öz təşəkkürünü bildirərək qeyd edib ki, bu gün ölkədəki mövcud qəzet bolluğu və saysız-hesabsız elektron informasiya vasitələrinin fəaliyyəti fonunda çap olunmaq, oxucunun diqqətini cəlb etmək böyük məsuliyyət tələb edir. Məhz bu baxımdan, rayon icra hakimiyyətinin qayğısı və maliyyə dəstəyi ilə vaxtlı-vaxtında oxucuların görüşünə gələn "Binəqədi" qəzeti bundan sonra da üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirməyə çalışacaq.

Sonda xatirə şəkli çəkdirilib.

# Olimpiadanın qalibləri mükafatlandırılıb



Xəzər Universitetinin Dünya Məktəbində riyaziyyat fənni üzrə olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə Xəzər Universiteti Xəzər Universitetinin təsisçisi və rektoru, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının baş məsləhətçisi Elnur Məmmədov, Azərbaycan Təhsil Şurasının sədri professor Əjdər Ağayev, məktəb direktorları, müəllimlər, valideynlər və şagirdlər iştirak ediblər.

İstedadlı şagirdlərin müəyyən edilməsi, məktəblərarası dostluq əlaqələrinin möhkəmləndirilməsi, riyazi məntiqi güclü olan uşaqların üzə çıxarılması, uşaqların fənn olimpiadalarına psixoloji cəhətdən hazırlığı, öz bilik və bacarıqlarına inam hissini gücləndirmək məqsədilə 14 yanvar 2017-ci il tarixində Bakı şəhəri üzrə VI, VII, VIII sinif şagirdləri arasında "Təhsil ağlın simasıdır" adlı "Riyaziyyat fənn olimpiadası" keçirilib. Olimpiadada bütün şəhər məktəblərindən 1100 nəfərə yaxın şagird iştirak edib.

Qaliblər Dünya Məktəbinin məzunları tərəfindən mükafatlandırıldıqdan sonra tədbir bədii hissə ilə davam edib.

# Operativ tədbirlər bəhrəsini verir

Son günlər havanın qarlı və şaxtalı keçməsi ilə əlaqədar Binəqədi Mənzil_Kommunal Təsərrüfat Birliyi (MKTB) gücləndirilmiş iş rejiminə keçib. Bununla bağlı hazırda qurumun bütün texnikaları hazırlıqlı vəziyyətə gətirilib. Xatırladaq ki, paytaxta yağan qar Binəqədi rayonunun enişli-yoxuşlu yollarında və sərt döngələrində də çətinliklərə səbəb olub. Amma vaxtında görülmüş tədbirlər nəticəsində qısa vaxt ərzində problemlər aradan qaldırılıb. Mənzil Kommunal Təsərrüfat Birliyinin baş mühəndisi Vəli Əliyevin qəzetimizə verdiyi məlumata görə, havaların qarlı və şaxtalı keçməsi ilə əlaqədar xüsusi problemli ərazilər öncədən nəzarətə götürülüb. Qeyri-sabit hava şəraiti ilə əlaqədar səhər saatlarından etibarən MKTB-nin xidmət dairəsində olan küçə və prospektlərə, o cümlədən respublika əhəmiyyətli avtomobil yollarına xeyli sayda maşın-mexanizm, texnika və canlı qüvvə çıxarılıb: "Texnikalar əsasən avtonəqliyyat vasitələrinin hərəkətində problem müşahidə olunan ərazilərə cəlb edilib. Qısa müddət ərzində sözügedən yollarda qarın təmizlənməsi və duz-qum qarışığının səpilməsi işləri həyata keçirilib. Nəticədə hərəkətin təhlükəsizliyi və fasiləsizliyi təmin olunub". Baş mühəndisin sözlərinə görə, idarənin maşın-mexanizmləri və canlı qüvvəsi gün ərzində qarın ən çox yağdığı və buzlaşmanın olduğu ərazilərdə vəziyyətə nəzarət edib, hərəkətin təhlükəsizliyinin təmin olunması məqsədilə gecə və səhər saatlarında buzlaşma baş verən yollara qum-duz qarışığı səpilib: "Qabaqlayıcı tədbirlər nəticəsində səhər saatlarında avtonəqliyyat vasitələrinin hərəkətində hər hansı bir problem müşahidə olunmayıb. Hazırda məhəllədaxili yollarda vəziyyət normaldır".





Qeyd edək ki, qurumun tabeciliyində olan mənzil istismar sahələrinin əməkdaşları Azadlıq prospekti 172/16 saylı binanın qarşısında yeni salınmış parkda sakinlərin dincəlməsi, rahat gəzintisi üçün ərazini qardan təmizləyib və işıqlandırma lampalarını dəyişiblər. Bu kimi tədbirlər, qeyri-iş günü olmasına baxmayaraq, digər ərazilərdə də həyata keçirilib.

Əlavə edək ki, havaların kəskin soyuması ilə əlaqədar rayon ərazisində yerləşən mənzillərin və təhsil müəssisələrinin istiliklə təmin edilməsi də ciddi nəzarətə götürülüb.

# "Olimpiya Hərəkatı" layihəsi çərçivəsində yarışlar davam edir




Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Olimpiya Hərəkatı" layihəsi çərçivəsində məktəblilərin respublika birinciliyinin Bakı şəhərinin rayonları üzrə məktəbdaxili yarışlarını keçirməyə şəraiti olmayan Binəqədi rayonu üzrə orta məktəblərin (179, 298, 300 və 301 №-li tam orta məktəb) məktəbdaxili yarışları 246 №-li məktəb-liseydə keçirilib.

Qeyd edək ki, "Olimpiya Hərəkatı" layihəsi olimpiya hərəkatının ümumtəhsil məktəblərində təşviqi, bədən tərbiyəsi və idmanın şagirdlər arasında kütləviləşdirilməsi, məktəblərdə sağlam və aktiv həyat tərzinin, ümumtəhsil müəssisələrində fiziki tərbiyə fənninin tədrisinin daha da yaxşılaşdırılması, hədəf idman növlərinin inkişaf etdirilməsi, "Bakı-2015" Avropa Oyunlarının idman irsinin gücləndirilməsi, Olimpiya idman komplekslərindən və idman bazalarından səmərəli istifadə edilməsi məqsədilə həyata keçirilir.

# Maarifləndirici ekskursiyalar şagirdlərin dünyagörüşündə mühüm rol oynayır

Dövlət Miqrasiya Xidmətinin (DMX) yaradılmasının 10 illik yubileyi münasibətilə təsdiq edilən tədbirlər planına əsasən, Binəqədi rayon məktəblilərinin bu təşkilatın Aparatına ekskursiyası təşkil olunub.

Məktəblilərlə görüşən Dövlət Miqrasiya Xidmətinin rəisi Firudin Nəbiyev Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuş qurumun fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirib ki, DMV əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəyə daxil olduqları anda ilk ünsiyyətdə olduqları dövlət orqanlarından biridir. Xidmət ölkədə olduğu yer üzrə qeydiyyat, müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi və mövcud iş icazələrinin müddətlərinin uzadılması, miqrasiya proseslərinin təhlili, proqnozlaşdırılması və monitorinqi, eləcə də qanunsuz miqrasiyaya qarşı mübarizə məsələləri ilə məşğul olur.

Xidmət rəisi vurğulayıb ki, əvvəllər ölkədə miqrasiya proseslərinin tənzimlənməsini və bu vacib sahəyə nəzarəti bir neçə dövlət orqanı həyata keçirirdi. Bu sahədə dövlət siyasətini yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Prezident İlham Əliyev miqrasiya siyasətinin başlıca parametrlərini müəyyən etdi. Ölkədə miqrasiya üzrə daha təkmil bir sistemin reallaşdırılması üçün Azərbaycan Prezidentinin 2007-ci il 19 mart tarixli fərmanı ilə müstəqil dövlət qurumu olan Dövlət Miqrasiya Xidməti yaradıldı. Dövlət başçısının iştirakı ilə Xidmətin yeni inzibati binası istifadəyə verilib. Binəqədi rayonunda inşa edilən və ən müasir standartların tətbiq olunduğu yeddimərtəbəli bina memarlıq üslubu, daxili tərtibatı ilə göz oxşayır. Binada Xidmət əməkdaşlarının fəaliyyəti üçün hər cür şərait yaradılıb.



F.Nəbiyev Avropada yaşanan miqrant böhranına rəğmən, Azərbaycanda dövlətimizin başçısının həyata keçirdiyi siyasət nəticəsində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yaradılmış şəraiti diqqətə çatdırıb, ölkəmizdə bu insanların hüquq və azadlıqlarının təmin edilməsi üçün əsaslı işlər görüldüyünü deyib.

Sonra məktəblilər DMX-nın qəbul və gözləmə zalları, "Çağrı mərkəzi"nin fəaliyyəti və əməkdaşların iş prosesləri ilə tanış olublar. Xidmətin Heydər Əliyev Muzeyini də ziyarət edən şagirdlər müasir müstəqil Azərbaycanın memarı və qurucusunun keçdiyi şərəfli həyat yolunu və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotostendlər və böyük şəxsiyyət haqqında yazılan kitablarla tanış olublar. Muzeyin fəaliyyəti, əbədiyaşar liderimizin xalqımız və dövlətimiz qarşısında böyük xidmətləri haqqında şagirdlərə ətraflı məlumat verilib. Bildirilib ki, muzeydə ulu öndərin gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycanın dünya birliyində nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyinin gücləndirilməsi, ölkə iqtisadiyyatının ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, "Əsrin müqaviləsi"nin imzalanması, təhsil, səhiyyə, elm, ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolara geniş yer ayrılıb.

Qurumun akt zalında Binəqədi rayon məktəbliləri ilə keçirilən görüşdə Dövlət Miqrasiya Xidmətinin yaranma tarixi, fəaliyyəti, həyata keçirdiyi tədbirlər barədə məlumat verilib. Qeyd olunub ki, Azərbaycanın iqtisadi-siyasi, sosial, mədəni, bir sözlə, hərtərəfli dinamik inkişafı respublikamızı əcnəbilər üçün olduqca cəlbedici ölkəyə çevirib. Hüquq-mühafizə orqanı statusun daşıyan DMX tərəfindən ötən dövrdə miqrasiya proseslərinin tənzimlənməsi ilə bağlı həyata keçirilən tədbirlər beynəlxalq təşkilatlar, eləcə də ölkəmizə səfər edən əcnəbi qonaqlar tərəfindən təqdir olunur.

Sonra Xidmət tərəfindən hazırlanan Avropada miqrant böhranından, Azərbaycanda isə miqrantlara yaradılan şəraitdən bəhs edən "Uzun səyahət" filmi nümayiş olunub. Binəqədi rayon məktəblilərinin böyük marağına səbəb olan ekskursiyanın sonunda xatirə şəkli çəkdirilib və şagirdlərə hədiyyələr təqdim olunub. Rayonda fəaliyyət göstərən 284 nömrəli məktəbin tarix müəllimi Mehriban Mahmudova belə bir maraqlı ekskursiyanın təşkilinə görə minnətdarlığını bildirib.






# Bələdiyyə üzvünün layihəsi birinci yerə layiq görülüb

Binəqədi rayonu, M.Ə.Rəsulzadə bələdiyyəsi və GİZ Almaniya Əməkdaşlıq Cəmiyyətinin Yerli Özünüidarəetmə Proqramının birgə təşkilatçılığı ilə Cənubi Qafqazda yerli özünüidarəetmə proqramının "Dayaq" mentorluq layihəsində iştirak edən bələdiyyə üzvü Ayla İbrahimovanın birinci yerə layiq görülən "Lider qızların idarəçilik məktəbi" layihəsinin yekun tədbiri keçirilib. Tədbirdə M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov, GİZ Almaniya Əməkdaşlıq Cəmiyyətinin Cənubi Qafqazda yerli özünüidarəetmə proqramının əməkdaşı Fidan Qasımova, Binəqədi qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Binəqədi rayon komitəsinin sədri Almaz Hacıyeva, Binəqədi rayonu Qeydiyyat şöbəsinin rəisi Tavat İsmayılova, 11 saylı uşaq poliklinikasının baş həkimi Məlahət İbrahimova, Bakı Tekstil Fabrikinin direktoru Səkinə Babayeva, bələdiyyə üzvləri və qəsəbə ərazisində təhsil alan məktəbli qızlar iştirak ediblər.



Tədbiri giriş nitqi ilə açan bələdiyyə sədri Hümbət Hüseynov qonaqları salamlayaraq layihənin mahiyyəti və əhəmiyyəti barədə məlumat verib, M.Ə.Rəsulzadə bələdiyyəsinin təşkilatçılığı ilə gənclərin bir çox uğurlu layihələrinin həyata keçirildiyini qeyd edib.

Layihə çərçivəsində liderlik bacarıqları mövzusunda bir sıra təlimlər keçirilib, qəsəbədə yerləşən, rəhbərləri lider xanım olan müəssisələrə şagirdlərin ekskursiyaları təşkil olunub. Lider xanımlar öz həyat və təcrübələrini, liderliyə aparan yolda uğurlarını şagirdlərlə bölüşüblər. Layihənin məqsədi liderlik xüsusiyyətinə malik qızların potensiallarını üzə çıxarmaq, gələcəkdə ixtisas seçimində, hər hansı peşəyə yiyələnməkdə onlara dəstək olmaqdır.

Tədbirin yekununda "Lider qızların idarəçilik məktəbi" layihəsində iştirak edən şagirdlərə sertifikatlar və hədiyyələr təqdim edilib.